Əvəz SÜLEYMAN

# ƏFSANƏYƏ ÇEVRİLƏN ÖMÜR

BAKI - YAZIÇI - 2012

Az2
2012

Ə 63

BBKC 63

**"Əfsanəyə çevrilən ömür". Əvəz Süleyman**

Bakı, "Yazıçı" nəşriyyatı - 2012, 92 səh.
*(Təkrar nəşr)*

***Kitabda Şirvan elinin inanc yeri, müqəddəs övliyalar nəslinin layiqli varisi olmuş Hacı Ağanın (Mirməhəmmədtağının) şərəfli ömür yolundan bəhs olunur.***

***Kitab Xətai Süleymanovun maliyyə dəstəyi ilə nəşr olunur.***

Nəşriyyatın direktoru
**Şəmsi VƏFADAR**

Redaktor
**Sərvaz HÜSEYNOĞLU**

| | |
|---|---|
| Kompyuter dizaynı | Ələsgər HÜSEYNOĞLU |
| Korrektor | Fatimə HƏMİDOVA |
| Operatorlar | Zərifə BAĞIROVA<br>Kəmalə |

Ə $\frac{5204000162 - (722)}{M - 656 - 2012}$ **qrifli nəşr**

***2006* ⓒ ŞƏMS**
***Təkrar nəşr* ⓒ YAZIÇI**

***Ön söz***

# BAĞIŞLAYAN VƏ RƏHM EDƏN ALLAHIN ADI İLƏ

Şükür olsun, aləmlərin rəbbinə. Salam və salavat olsun Həzrəti Məhəmməd (S) və onun pak ailəsinə. Şükür olsun Allaha ki, bizləri Həzrəti Məhəmməd (S) və onun pak və məsum övladlarının davamçılarından olmağa qərar verdi.

Ey Rəbbim! Köksümü açıb genişlət, işimi yüngülləşdir. Dilimdəki düyünü aç, Seyid övladı olan Hajı ağanı (Məhəmmədtağını nəzərdə tuturam), onun yaxın nəslini onlara yaraşan sözlə vəsf etmək üçün mənə kamal və yaxşı nitq ver.

# OĞUL FƏRƏHİ, NƏSİL YOLU

Gecəni Seyid Əli ağa heç də yaxşı yatmamışdı. Ona görə yatmamışdı ki, yol gözləyirdi. On üç il bundan əvvəl, sevimli ürək seçməsini - Mirmehdini uzağa - peyğənbər yurduna təhsil almağa göndərmişdi. Bu on üç il Seyid Əli ağa üçün, bəlkə də 4-5 on üç il qədər keçmişdi. On üç ilə dözən ürək indi, bu 13 saat üçün yaman darıxmışdı. Seyid Soltanbəyim arvad kişini duyurdu. O da heç az nigaran deyildi. Gecəni sabaha kimi Mirmehdinin hündür boyuna, enli kürəklərinə, gözəl vücuduna heç də az yalvarmamışdı. Arvad da gecəni sanki çimir belə etməmişdi. Gözü yuxu aparan kimi, Mirmehdini görür, o saat da ayılırdı. İstəyirdi düşüb küçə qapısından boylansın, Mirmehdi gələn yollara baxsın. O yola qurban desin. Ancaq bilirdi ki, Seyid Əli ağa o saat onunla ayağa qalxacaq. Səhərə kimi avqust istisini bəhanə edib, küçə qapısının ağızında oturacaqdı. Birdən kişi özü qalxdı. Sakitcə geyindi, səbrlə geyindi. Öksürmədi, "Seyid qızı oyanmasın", -dedi. Sivrilib qapıdan çıxmaq istədi. Seyid qızı da qalxıb, yerin içində oturdu.

Kişi sakitcə həyətə düşdü. Göylərə boylandı. Ülkər ulduzu öz dəstəsi ilə düz evin üstündə toplaşmışdı. Kişi sevindi, birinci gələn qonaqlar üçün. "Oğlum xoşbəxt olacaq, hər qonaq üçün Ülkər ulduzu evin üstünə gəlmir,"- deyib küçəyə çıxdı. Oğlu gələcək yola baxdı.

Sevindi. İçində güldü. Birdən gecə olduğunu xəyalına gətirdi. Yuxarı, yenə Ülkər ulduzuna baxdı. Dan ulduzu doğmuşdu. “Sabahdır”,- deyib qapının ağızında, daşın üstündə oturdu. Babadağdan süzülüb gələn soyuq hava, kişinin ciyərlərinə doldu, sinə dolusu nəfəs aldı. “Oxay” demədi. Saxladı onu, oğul boyuna, Mirmehdini qucaqlayanda deyəcəkdi oxay; oğul boyuna baxanda deyəcəkdi; oxay, oxay.

Kişi yenicə oturmuşdu ki, Seyid qızı da gəldi, o da sevdi kişini, o da arzuladı, oğul gəlişini, o da göylərə baxdı. Gördü Ülkər ulduzunu: - Seyid Əli ağa, o ulduzlar niyə bizim evin üstünə toplaşıblar?

— Bizə gözaydınlığı verirlər, - dedi və gülümsündü. Bilirsən, o, ulduzlara, Ülkər ulduzu deyirlər. Bu ulduz doqquz ulduzdan ibarətdir. Elimdə Alisionadır adı. Onlar da bizim sevincimizə qoşulurlar, ay Seyid qızı. Bir bax, Dan ulduzu da doğub, gedək, namaza hazırlaşaq. Bir azdan el töküləcək bura. 5 pud düyünün plovunu bişirtdirəcəm. Tapşırmışam, yolu kəssinlər, nə qədər gəlib - gedən varsa, buraxmasınlar, yedirib yola salsınlar. İndi ziyarət vaxtıdı, el yolunda adam çoxdur. Sən özündə göz- qulaq ol, qonaqları yaxşı fərəğatdasınlar. Qadınları deyirəm. Mənim bundan böyük şad olan günüm yoxdur. Elə qohum-əqraba da az sevinmir. Arvad, yadındadı, uşaq gedəndə nə kökə düşmüşdüm? Zarafat deyil, Nəcəfi - Əşrəfin elmi hövzəsində on üç il təhsil alıb, höccətül İslam - vəl - Müslimin və müctəhid dərəcəsinə çatasan. Allah

dayağı olsun balamın - deyib, ayağa qalxdı - gedək, namaza hazırlaşaq.

***

Mirmehdini qarşılamaq üçün otuza yaxın atlı Niyal dağa getmişdilər. Bir gün əvvəl, 1870-ci ilin xoş avqust günündə Mirmehdi Şamaxıda qəflətən bibisinin qapısını döydü. Qapını açanda qarşısında gözəl vücudlu oğlan görən bibi dənzərdi. Tanımadı. Bibi,- deyən,- Mirmehdini tanıyanda arvad qardaşı oğluna sırmaşdı. Onu başdan- ayağa öpdü, öpdü, evdən səs tutunca;

- Yox, - dedi,- bala, mən özümü sənin ayaqların altda qurban demişəm. Sənin ayaqların peyğənbər gəzən torpaqda gəzib.

Üzünü böyük oğluna tutub: - Kəsin məni, bu, mənim arzumdu, Mirmehdinin ayaqları altında kəsin - dedi.

Mirmehdi arvadı qucaqlayıb ayağa qaldırdı.

Bibi, elə sən özün peyğənbər nəslisən, məni günaha batırma.

- Yox, bala,- deyib, arvad birdən onun ayaqlarına sırmaşdı, üzü yuxarı ona baxa- baxa Mirmehdini tumarlaya- tumarlaya hey öpürdü. Evdəkilər, qonşular töküldü. Sanki, göydən yerə işıqlı ulduz düşdü, ulduz. Doğurdan da, Mirmehdi işıqlı Dan ulduzu idi. Hamı yığıldı. Sürfə açıldı. El gedəndən sonra, Lahıca getmək üçün muştuluqçu çapar getdi. Mirmehdinin səhər gələcəyini bildirdilər.

Qarşılamağa Niyaldağa gedənlər atları çəmənliyə buraxıb, özləri bir- birinə zarafat edirdilər. Gənclər gah güləşir, qurşaq tutur, gah da bir-birini sözlə bağlamağa çalışırdılar. Bilirdilər ki, Mirmehdinin başı ilə çoxlu qohum - əqraba gələcək. Yolu da yaxşı bilirdilər. Qurttəpə, Kalva, Sulut yolu və Həramilər meşəsindən keçib, Niyaldağa çıxacaqdılar. Üzü Lahıca gedəcəkdilər.

***

Mirmehdi gecəni yata bilmədi. Yorğun idi; Axşamdan yüngül çimir edib, oyandı. Saat 3- də durub hazırlıq gördülər. 10-a qədər at hazırlanmışdı. Minəxurdakı Karvansaradan çağırmışdılar kəsə yolla getmək üçün. Saat 4-də yola düşdülər. Atlar düz yollarda, ildırım kimi şığıyırdı. Sanki bu heyvanlar da ata- ana həsrətini, ata-ana görüşünü, nigarançılığını başa düşürdü.

Mirmehdini xəyalları tez-tez ərəb torpağına aparır, ordakı qumlu çöllər bu başı göylərə ucalan ağacların arasında əriyirdi. Bura onun üçün vətəndi. Meşələri keçə-keçə alışırdı vətənə. Meşə quşlarının nəğməsinə alışırdı, öyrənirdi. Ağaclara, kollara, bir də vətən havasına alışırdı.

Doqquz yalın birləşdiyi, dəvə belini xatırladan bu Niyal dağ insana Baba dağını aydın görməyə, bu ormanları iki gözə yığmağa necə də yaxından köməklik göstərirdi! Saat iki radələrində cavanlar Mirmehdini qarşıladı. Görüşdülər. Qardaşları və əmisi oğlanları Mirmehdiyə sırmaşdı. Bu görüşə Niyaldağın öz gözləri

yaşardı. Doğurdan da, bayaqdan fırlanan qara buluddan çobanalladan yağış yağdı.

- Gözləyirlər, - deyib çaya endilər. Çay boyu atları çapmağa başladılar.

Atlar bir-bir çatırdı. Seyid ağa hərəyə bir beşlik qızıl pul muştuluq verirdi Birdən oğlu gözünə dəydi. Kişinin əlindəki pul kisəsi sanki buz kimi yapışdı əlinə. Dinmədi ağsaqqallardan həya edib, Mirmehdini görməyə tələsmədi. Əyildi torpağı öpdü. İçəri keçdi. Yenə bayıra çıxdı. Mirmehdi onun boynuna sarılıb, “mənim seyidim” - dedi. Öpdü bu nurani üzü, öpdü, öpdü. Kişi əvvəl yan-yörəsinə baxdı. Dayana bilmədi, öpdü oğlunu, qucaqladı boynunu nə qədər dayandı, bilmirəm. Gözləri yaşardı. Geriyə çevrilib ağsaqallardan üzr istədi. Yaşmaqlı qadınlar arxada dayanmışdı. Mirmehdini gözləyirdilər. Anası onu içəri çəkib, boynuna sarıldı, iki bacısı ayaqlarını qamarladı. Sevinc yaşı Mirmehdini culucunbur etdi. Özü də onlara qoşuldu. Vətən istisini, el istisini, qohum-əqraba istisini, ata-ana istisini indi duydu. “Qurani-Kərim”də oxuduqları bir an gözünün qabağına gəldi. El məhəbbəti, vətən məhəbbəti Mirmehdini qoxulu çiçəyə çevirmişdi. Hamı bu çiçəyi iyləməyə çalışırdı. İndi o, məscidlərə gedəcəkdi. Orda oxuduqlarından, elə gətirdiyini yayacaqdı.

***

Şadlıq məclisi üç gün çəkdi. Hamı gözaydınlığa gəlir, qurban tikəsindən dadır, xoş üzlə evlərinə yollanırdı. İndi Mirmehdini böyük Lahıc qonaq çağıracaqdı. Lahıcdakı beş məhələnin beşi də (Zəbəro, Muradlı, Ağalı, Bəədvan, Piştə) Seyidlər məhəlləsinə axışırdı. Kənddə hamı sevinirdi, çünki kənddə təzə bir gül də açılmışdı.

Üç aydan sonra Mirmehdinin qonaqlıqlardan başı açıldı. Elə bu arada Şamaxıdan, Salamovlar nəslindən Şamaxıya gəlmək üçün dəvət məktubu aldı. Atası Seyid Əli ağa ilə götür -qoy etdi. Bu nəsil Şamaxıda güclü nüfuz sahibi olmaqla, əsil ziyalı nəsl idi. (İndi respublikamızda onlarca alimi olan bir nəsildir.) Seyid Əli ağa indi yaxınları ilə məsləhətləşir, dəvətin qəbul olunmasını süzüb, süzgəcdən keçirirdi. Yəqin ki, ata balasına- Lahıc elinin bir nuruna xeyir- dua verəcəkdi.

## BALIQ DƏRYADA BÖYÜYƏR

Seyid Əli ağanı yenə ayrılıq fikrləri rahat buraxmırdı. Bu da onu narahat etmirdi ki, Mirmehdinin babası Mirhüseyin ağa Şamaxıdakı Şah küçəsindəki məsciddə 40 ildən çox axund olmuşdur. Həmin məscidin eyvanında dəfn olunmuşdur. Kişini fikrli görən Seyid Soltanbəyim arvad dizi üstə kişidən aralı oturub, onu söhbətə tutmaq istədi.

- Seyid Əli ağa, indi nə fikirdəsən, Mirmehdini Şamaxıya buraxırsan, yoxsa burdakı məsciddə qalmağın yaxşı bilirsən?

- Yox, Seyid qızı, mənə elə gəlr ki, Şamaxıya getsə yaxşı olar. Əvvala, mənim atamın orda qohum - əqrabası var. Onu Şamaxıda hamı tanıyır. Yaxşı xidməti var. Bilirsən də harda dəfn olunub?..

Getsə yaxşıdı. Balıq dəryada böyüyər. İndi Şamaxı Azərbaycanın bilik qaşıdır. Mən izin verirəm. Seyid qızı, sən necə?

- Ağa, sənin məsləhətini mən heç vaxt çevirməmişəm. Ayrılıq çətindi. Ancaq sən hər məsləhəti ölçüb - biçib verirsən. Mən qəbul edirəm. Oğlun da qəbul edər.

- Seyid qızı, bir məsələ qalır. Mirmehdini oxumağa məscidlər göndərib, onun təhsil xərcini məscidlər ödəyib, ona görə gərək baş axundun yanına gedib, ondan halallıq alam.

- Ağa, düz deyirsən, baş axund da həmişə bizə hörmət edən, sayan insan olub. Bizim Seyiddər nəslini həmişə yüksək tutub.

- Seyid qızı, sənin fikirini bilmək istəyirdim. Baş axunddan razılıq və halallıq almışam. Məsciddə axundla birlikdə namaz da qılıb, Allahın dərgahına dualar oxumuşuq. Axund özü Mirmehdini məscidə çağırıb, halallıq verəcək, - dedi və gülümsündü.

- Ağa, ulu babamızın çırağı sənə halaldı.

***

Payız bu il yağışlı başlamışdı. Avqustun sonlarında düşən yağış yeri tamam yaz ovqatına çermişdi. Sentyabrdan başlayaraq yerin yumşaq olduğunu görən rəcbərlər cütlərini sazlayıb böyük həvəslə əkinə çıxdılar. Bu həvəsə zəhmətdə gözü olan hər bir insan qoşulmaya blməzdi. Bütün Lahıc  özünün əkin gününü yaşayırdı. Seyid Əli ağa Mirmehdini əvvəl çarvadarlarla göndərmək istədi. Ancaq Mirmehdi cavanlığına salıb “yox, ata, enişi atı minmək olmur, yoxuşu da heyvana yazığım gəlir. Heybəmi hazırlayın. Allah qoysa, tezdən çarvadar dəstəsinə qoşulub Şamaxıya gedəcəm. Allah işimə  yardım etsin. Ağalarım köməyimə çatsın,”- dedi.

Saat 5-də Seyidlər məhəlləsində işıqlar yanmağa başladı. Görünürdü səfərə gedən çox olacaq. Birinci atlı, ikinci, üçüncü və s. bir-birinə qoşulub sıraya düzülür, Əhən yolunda hamı bir-birin gözləyir, səhərin işığında salamlaşırdılar. Bəli, Sulutbaşında şirin nahar süfrəsi açılacaqdı. Sonra Sadayüstündən Kalvaya adlayıb, ordan da Qurdtəpə yalını aşıb, Şamaxıya yetişəcəkdilər. Bu günkü çarvadar dəstəsində Mirmehdi ağa da vardı. Onun ürəyində yeni arzular, yeni xəyallar dolaşırdı.

Şamaxıya dar axşam çatdılar. Ala-qaranlıq şəhərə girdilər. Çarvadarlar Minəxur küçəsindəki karvan-saralarda yüklərini boşaldıb rahatlaşdılar.

Mirmehdi yenə bibisinin evinə üz tutdu. Bibi yenə onun hündür, enlikürək, cüssəli boyunu oxşadı. Seyid Əli ağanın təhsilini 13 ilə peyğənbər yurdunda tamamlayıb qayıtması gözlərinin önünə gəldi.

Xəyal onu özünün qardaşına olan məhəbbətli günlərinə apardı. Mirmehdi atasının gənclik parası, gənclik oxşaması idi.

- Bibi, nə fikirə getdin? Bibioğlum Seyidəşrəf hardadı?

- Heç, başına dönüm. Elə indicə gələr. Yəqin məs-ciddədi. Axı, o da hazırlaşır sənin kimi, uzaq səfərə. İranda - Məşhəddə oxuyasıdır.

- Allah işin avand etsin. Ağalarım darda dadına çatsın.

- Qardaşım Seyidəli ağa da gələcək? Seyid qızı necə?. O da gələcək..?

- Bibi, hə. Heç şübhə etmirəm, mənsiz onlar Lahıcda qala biləyəcəklər, darıxacaqlar:

- Hə, düz edərlər gəlsələr, axı babanın evi sanki boşdu. Evi yiyəsiz qoymaq olaz.

- Mən də elə başa düşürəm.

- Bibi, yorğunam, istəyirəm……

- Yat, bibi sənə qurban olsun!

***

Salamovla Mirmehdi ağa cümə günü Qalabazar küçəsindəki Qalabazar məscidində görüşdülər. Mirmehdi şux geyimli, boyu, yaraşığı, hörmət və izzət

sahibi olan Salamovu ovsunladı. “Savadı da özünə yaraşan olsa, çox gözəl olar,” - dedi. Mirmehdi Salamovun əlindən, o da Mirmehdi ağanın alnından öpdü. Salamov onu məscidə apardı. Cümə namazından sonra camaata üz tutdu: - Bu cavan oğlan Hacı Seyid Əli ağanın oğludur. Peyğənbərin yurdunda 13 il oxuyub, Nəcəf - Əşrəfdə ümümdünya ilahiyyat hövzəsində təhsilini tamamlayıb, müctəhid və höccətül İslam vəlmüslimin dərəcəsinə çatıb, indi Ağasının qoyub getdiyi yolu, məscid axundluğunu Mirmehdi ağaya tapşıraqmı? Necə bilirsiz?

Ortaya sakitlik çökdü. Heç kim dinmədi.

Cavan oğlanı süzməyə başladılar. Mirmehdi ağanı bir az tər basdı. Bilmədi nə etsin.

Birdən ayağa qalxan baş molla: - Camaat, öz ağalarımızın övladıdır. Məscid pulu ilə təhsil görüb. Mən Salamovun etdiyi təklifi bəyənirəm. Xahiş edirəm biz onun mouzələrini dinləyək - dedi.

Hamıda rahatlıq alındı. Mirmehdi ağa irəli çıxıb, yerini tutdu. Birdən - birə nitqi tutuldu. Bilmədi, nədən başlasın:

- Siz buyurun, mən söyləyim, - dedi, bir az da səsi titrədi.

Kimsə yerindən sanki həlim səslə:

- Ağa dünyanın əmələ gəlməsi haqqında danışsan yaxşı olar - dedi.

- Baş üstə, deyib, - sözə başladı. Onun aydınlığı hamını elə o gün heyran qoydu. Hamı axundu bəyəndi. “Allah köməyin olsun,” - deyb, evlərinə yollandılar. O gün söhbət bütün evlərdə təzə gələn Hacı Seyid Əli ağanın oğlundan, axunddan getdi.

***

Artıq Mirmehdi ağanın Şamaxıdakı dərin ziyalı səviyyəsi məlum idi. Xalq ağanı sevirdi, hörmət bəsləyirdi. Özü sevib - seçdiyi Zinyət xanımla ailə qurmuşd. Baba yurduna xeyli dəyşiklik edib özünə yurd - yuva düzəltmişdi. Zinyət xanımı məşhəd ziyarətinə aparmışdı. Sevirdi Zinyət xanımı. O da sevirdi Mirmehdi ağanı. Ağanın içi də üzü kimi tər - təmiz idi. Bütün insanlara ağanın qayğı göstərməsi, onları yaxşı yola çağırması, peyğənbərin qoyub getdiklərini Şamaxılılara elə sevdirirdi ki, onun sayəsidə maarifçilik sürətlə irəliləyirdi. Ağa təkcə dini təhsili təbliğ etmirdi. Həm də dünyavi təhsili təbliğ edirdi. Dünyavi təhsilin səmərəsindən hər moüzəsində söhbət açırdı. Peyğənbərin "Behiştə qədər oxumaq" kəlamını nümunə gətirirdi. Başqa xalqlarda islamın geri qalmasının səbəbini həmişə təhsildə görürdü. Bunun sayəsidə o dövrün S.M. Qənizadəsi, M.Ə. Sabiri, A.Səhhəti, M.Hadisi yetişirdi. Heç şübhə etmək olmaz ki, onların ilkin təhsili mollaxanalardan başlamışdı.

Mirmehdi ağanın ailəsində xeyli dəyişiklik vardı. 6 övlad dünyaya gəlmişdi. Mirzeynalabidin, Mirnəhmət, Mirməhəmmədtağı, Fatimə, Seyidxanım, Tahiarə kimi nəslin gələcəyi olan uşaqlar evdə təzə dünya yaratmışdı Mirmehdi ağa üçün. Ağa sevirdi balalarını, bala sevgisi ağaya, ata-anasına olan sevgini daha da alovlandırırdı. Mouzələrində övlad sevgisindən, ata - anaya olan məhəbbətdən, peyğənbər nəsihətlərindən

maraqla danışır, içərisindən gələn səs kimi insanlara çatdırırdı. Bax, bu idi milli tərbiyə, bax, bu idi xalq sevgisi, bax bu idi yetişən nəsili pis işlərdən qorumaq, elmə, təhsilə, düzgünlüyə, vətənə məhəbbətlə xidmət etməyə aparmaq.

Kiçik oğlunun dünyaya gəlməsi Ağanı heyran qoymuşdu; Həyətdə gəzişirdi. Körpə uşaq ağlaması eşidəndə evdəki nigarançılığa son qoyulduğunu duyub, ilahiyə əl açdı. Elə bu anda Dan ulduzu göydən şığıyıb, sanki Ağanın düz başının üstündə dayandı.Əvvəl Dan ulduzunun belə doğması Ağaya təəccüblü gəldi. Ancaq yenə göylərə, açıq səmaya baxmağa başladı. Göy qübbəsi əvvəlki müşahidələrindən fərqli olaraq tez işıqlandı. Bu, bir neçə dəqiqəyə hasil oldu. Sarı, narıncı, qırmızı rənglər göy qurşağını çox məharətlə rəngləyirdi. Bu, ağanın gözləri önündən qaçmadı. Bunu da müşahidə etdi ki, günortadan sora güclü may yağışı yağacaq, elin bərəkəti artacaqdı.

Yadında qaldı ağanın bunlar, yadında qaldı Dan ulduzunun doğması, ogünkü dəyşikliklər qaldı yadında. Yaşatdı həmin günü beynində. Oğlan uşağı oldu. Adını özü qoydu. Peyğənbər övladlarından birinin adını - Məhəmmədtağını seçdi. Eləcə böyüdü oğlan. O,böyüdükcə ata həvəsi, ata arzusu, ata ümüdi də böyüdü, böyüdü.

Böyük bir gənclik yetişdi.

## ÜÇ XOŞ OVQAT

1906-cı ilin qışı idi. Hacı Mirmehdi ağa səhər naharını bitirib, məscidə getməyə hazırlaşırdı. Məşədi Zinyəti çağırıb, ona uşaqlarla bağlı olan tapşırıqları verdi. Həyətə göz gəzdirib, küçə qapısına yaxınlaşdı. Geri baxanda on dörd yaşlı Məhəmmədtağı gözünə şirin dəydi. Uşaq elə bil nur idi. Nəzər duası oxuyub, üzündən öpdü. “Küçəyə çıxma,” - deyib, - qapını örtdü. Məscidə doğru nisbətən az insan gediş - gəlişi olan küçə ilə ağır yerişlə gedirdi. M.Ə.Sabirin salamını eşidib, fikrindən ayıldı.

- Əlleykümə salam,-deyib şairə əl uzatdı. Şair də ağaya əl uzadıb, ikiəlli görüşdü. Şairin üzündəki xoş ovqat ağanın canına yayıldı. Ağa da xoş ovqatlı söhbətlə şairin diqqətini cəlb edən, ogünkü- cümə gününün savabından danışdı. Belə xoş gündə xoş söhbətin, yaradana yaxşı təsir bağışlamasından qısa, yadda qalan məsləhət verdi.

Şair Hacı Mirmehdidən ayrılanda: - Ağa bütün dindarlar sizin kimi, alicənab, nurlu, xeyirxah olsaydı necə də yaxşı olardı - dedi. Sizin azca söhbətiniz, məni məftun etdi. Çox gözəl ovqata yiyələndim. Ağa, azsavadlı mollaları nəzərdə tuturam, əgər onlar sizin dediklərinizi deyib, həyata keçirsələr, İslam dini gündən-günə şüurumuzda möhkəmlənər, bütün müsəlmanları dinimizin dayağına çevirər. Mən sizin mouzələrinizi dinləyir və xalqdan eşidirəm. Bu yaxşı

yolda bir olan Allah sizin köməyiniz olsun, - deyib,- əl uzatdı.

Şairdən ayrılan Mirmehdi ağanın yadına S.Ə.Şirvani ilə atsı arasındakı məsciddəki söhbət düşdü:

Olanı beyinində süzə - süzə yoluna davam etdi. S.Ə.Şirvani Şah küçədəki  məscidinə gedir. Şair içəri girəndə Hacı Seyidəli ağa ayağa qalxır, minbərdən düşüb, S.Ə.Şirvanini qarşılayır. Namaza gələn nadanlar: - Ağa, o, əyyaşdır. Siz ona hörmət göstərirsiniz? - deyə etiraz edir.

Seyidəli ağa cavabında deyir:

- Siz çox böyük səhv edirsiniz. Əvvala, o, seyiddir, mənim əmim oğludur. Bir övladıq. Seyidin tam ilahiyyat təhsili vardır. Elmi gözəl bilir. Bir də o, məndən Allahın yanında bir neçə təbəqə yüksəkdir.

Yenə səs ucalır: - Ağa, siz yanılırsız? Şairi tanımırsız.

Ağa yenə cavab verir:

- Siz, mənə hörmət edirsiz, Seyidəm, məscidin axunduyam. Ona da hörmət edin ki, Seyiddir, ruhani alimdir, Allahın böyük ilhamı şeir vəhyəsi ondadır. Bəli, yaradanın yanında onun xətri mənimkindən qat-qat üstündür. Mən yazılanları sizə söyləyirəm. Şairsə, Allahdan gələn söz vəhyəsini insanlara çatdırır. İndi cavab verin, kimdir yaradanın yaxını? Əlbəttə, S.Ə. Şirvani.

Ağanın şairə verdiyi qiyməti görən şair bədahətən deyir:

***Zahida, ol sənəmin zülfi -  çəlipasına bax,***
***Aç bəsirət gözünü, nərgizi şəhlasına bax,***

***Ayeyi xəmr oxuyur, nəfini inkar qılır,***
***Tutduğu felini gör, verdiyi mənasına bax.***

***Cənnətə getdi və ya duzəxa mürdə, nə qəmin?***
***İrsinə dik gözünü,külçəvi həlvasına bax.***

***İstəyir cənnəti zahid bu qədər hiylə ilə***
***Əbləhi fikrini gör, dildə təmannasına bax.***

***Dəli-divanə sevəntək o zülfi siyəhi***
***Başının şurunu gör, eşqə sevdasına bax.***

***Sanma bu Seyyidi sən əhli-cəhənnəm, vaiz,***
***Neyləyirsən ələmin, dildə təmənnasına bax.***

Hər iki seyid övladı bir - birini öpüb yerində əyləşir.

Məscid qapısına çatan ağa fikirdən ayılıb onu gözləyən insanlara salam verdi.

# ŞAİRİN ÖLÜMÜ

Mirmehdi yay istisinə "Allahın payıdı, onun göndərdiyi - yaradan payı səbəbsiz olmaz, o, məsləhət bilirsə, deməli bu yaratdıqlarının xeyrinədir," - deyib yaradana Şamaxı eli adından dualar oxuyardı. Bu gecə də hava isti keçmişdi. Ağa küçə pəncərəsi olan qonaq otağında yatmışdı. Dəmir torlu pəncərədən süzülüb

gələn sərin meh "Fitilbörk" ətlazından olan pərdələri həzin xışıltı ilə oynadırdı. Bu xışıltı bəzən musiqiyə çevrilirdi. Bəzən gecə şahvarı ağaya şirvan gözəlliyini, həzin - həzin yedirdirdi. Sabaha yaxın ağanı şirin yuxu apardı. Yuxuda Həzrəti Cəbrayılın əlində tək gül getdiyini gördü. Ayıldı. “Bəxtəvər o şəxsin halına ki, bu gecə Həzrətlə sevdalaşacaq,” - dedi. Bu, səhər üzü idi. Daha yatmadı, nə də marağı oldu. Geyinib həyətə düşdü. Bir azdan Məşədi Zinyət də kişinin yanına gəldi. İstədi mübarək yuxunu danışsın. Saxladı özünü. Evin ehtiyaclarından, yurd-yuva quran uşqların çətinliklərindən xeyli danışıb məsləhətləşdilər.

Axırda ağa:

- Məşədi, təzə ailələrdə ağır çətinliklər həmişə olur. Bu, bütün ulularımızın və bizim keçdiyimiz yoldur. Çətinlikləri yox etmək üçün, ulu göndərən insana xəzinə əmanət edib. Bu, cavanlıqdır. Onun gücü ilə hər işin öhdəsidən gəlmək mümkündür. Tələsmə. Hər şey yaxşı olar. Evdə hazırlıq işləri gör. Məhəmmədtağını peyğənbər vətəninə yola salmağımıza bir neçə gün qalıb. Bütün sənədləri hazırdır. İnşallah, mən keçən yolu o da keçər. Gün olar ki, onun camalındakı nur daha da böyüyər, ulu babalarımızın və mənim davam etdiricim olar.

Birdən carçının səsi küçəni bürüdü: - Zeynalabidin oğlu şair Mirzə Ələkbər Sabir vafat etmişdir. Günorta naharından sonra dəfn olunacaq.

Hacı Mirmehdi əlini yuxarı açıb: - Şükür sənin böyüklüyünə - deyir. Həzrət Cəbrayılı göstərməklə,

dedin ki, başındakı o nadanlara anlat, yaradan mənəm, əmr edən mənəm, şüur, nitq verən mənəm, bu hamı üçündür. Vəhyə göndərən də mənəm. Bu hamı üçün deyil. Bu mənim əzizlədiklərim üçündür. Nə xoşbəxtdir şair. Min-min rəhmət.

Zinyət arvad səsə evdən çıxdı.

- Şair Sabir vəfat edib?

Mirmehdi ağanı fikir apardı. Mollalar bu dəfnə getməyəcək. Qarşıdurma olacaq. Mən nə edim?

Hə, mən hüzür evinə çağrılmamış getməliyəm,- deyib evə keçdi.

- Məşədi, mənə səhər yeməyi ver,- dedi. Bardaş qurub öz dörundə əyləşdi və nahara başladı. Yüngül yay geyimi geyib hüzür evinə yollandı.

Abbas Səhhət uzaqdan ağanı görüb, ona sarı yeridi. Qarşıladı ağanı. Şairin müsibətinə şərik olduğu üçün ağaya imam, axirət dilədi və onu içəri apardı. Ağa uzun səslə ilk duanı verdi. Hamı sakitləşdi. İşlər axarına düşdü. Ağanın ölənlərinə yüz yerdən rəhmət oxundu.

Mirmehdi ağanın hüzür yerinə birinci getməsi bəzi mollaların acığına səbəb oldu. Kin tutdular ağaya qarşı. Dalınca danışdılar.Onsuz da bunları ağa bilirdi. Bu elmsizlərə, bu dünya üçün yaşayanlara ağanın acığı tutmadı. “Bildikləri odu” dedi. Dəfndə Axund Mirmehdi ağa qabaqda gedirdi. Onun tərəfində olan ziyalı mollalar da yanında idi. Dəfn qurtarıb, qayıdanda verilən duadan sonra, şair Abbas Səhhət yenə ağaya razılıq bildirəndə, ağa onu saxladı:

- Doktor, mən sənin kimi ziyalılara söykənirəm. Sizlər

Şamaxının əsas dirəyisiz. Şairin dəfninə gələndə, bu, İslamın dəyərlərindən irəli gələn borcumdur. Bir din xadimi kimi borcumu yerinə yetirmişəm. Şairin yaradan yanında hörməti və yeri ucadır. Allahdan yenə şairə rəhmət diləyirəm və zəhmətimi halal edirəm,- dedi. Sabirin yaxınlarına başsağlığı verib, məscidə yollandı. Hacı Mirmehdi buradakı hücumlara ilahiyyat elminin tövsiyyələri və hadisələri ilə cavab verdi. Amma….

## UZUN AYRILIQ YOLU

1911-ci ildə Həcc ziyarəti noyabr ayına düşmüşdü. Böyük həvəslə Şamaxıdan da 4 nəfər bu ziyarətə hazırlaşırdı. Ziyarətə gedənlərdən Lahıcdan Misgər Dəmir, Mirmehdi ağaya yaxın adam idi. Odur ki, Mirməhəmmədtağını Dəmir ilə tez də olsa, yola salması arxayınçılıq idi. Belə də hazırlıq işləri görülürdü. Bir gün əvvəl Mirməhəmədtağının arzusu ilə onun dostlarına, Mirmehdi ağanı istəyənlərə və qohumlara sürfə açıldı. 3 batman düyünün plovu bişirildi. Məclis düzəldi. Ortalığa güclü nəmər qoyulmuşdu. Müxtəlif növ ləpələr, kişmişlər, nabatlar yan - yanı düzülmüşdü. Hər növ meyvələr, üzüm süfrəni bəzəyirdi. Bu gümrahlıq ağaya və Zinyət arvada xoş idi. Sanki bu da şad bir toy günü idi. Axı bu həyətdə beş toy olmuşdu. Mirzeynalabidinin toyu, Mirnəhmətin toyu, Fatmanın,

Seydxanımın,Tahirənin toyları. Bu toyları da öz təmizliyi ilə Şamxıda və Lahıcda xüsusi ad qazanan Məşədi Zinyət hər şeyi özü istəyən kimi hazırlatdı. Toya bənzəmirdi. Ancaq o, beş toya bərabər idi. Peyğənbərin "Qəbrə qədər" oxumaq kəlamı Axundu həmişə oyaq saxlayırdı. Odur ki, arzusu bu idi. Başa çatırdı arzusu. Cəmi bir gün sonra yola salınacaqdı bu "işıqlı" oğlu. Ürəyində "işıqlı balam",- deyərdi. Ağaya çox tez-tez görünürdu bu işıq, bu sevgi. Məclis o ki var şad keçdi. Təkcə Məşədi Zinyət öz payın yemədi. Əhd eləmişdi. Səhər küçə qapısında dayanan birnci nəzir istəyənə yedirəcəkdi payın. Saxladı onu .Sərin yerə qoydu. Üstünü örtdü. Tez-tez baxırdı ona. Əmanətə baxan kimi baxırdı ona.

Bir gün sonra küçə qapısı tamam doldu. Mirməhəmmədtağını süzdü anası, süzdü atası, qucaqladı bacıları, qardaşları, qohum-əqrəbanın şehləndi gözləri, güldü üzləri, zəvvar yükü yükləndi. Şəhərin ayağında bir də görüşdülər.

Mirməhəmmədtağı təkcə anasına, “ana, südünü halal elə,” - dedi. Doldu ana gözü, qəhər tutdu ana gözün:

- Halalın olsun, bala, -deyə bilmədi. Başı ilə halallıq işarəsi verdi balasına. Yaşmağın altında gözlərinə şeh düşdü. Ürək hərarəti səhər günəşi kimi bu şehi tez qurutdu. Ata vüqarı bu şehə aman vermədi. “Balam peyğənbər yurduna yol gedir” dedi.

***

Yoldakıları çətinliklər qorxutmurdu. Hamı arzu kimi, istək kimi, ölümdən qorxmur kimi gedirdi. Çatmaq, ziyarət etmək tələbi ölümdən qat-qat güclü idi. Bu güc də qüvvət verirdi insanlara. Uzanan zəvvar yolunda iradəli Mirməhəmmədtağı da, bütün çətinliklərə baxmayaraq, ürəyi onu uça- uça aparırdı peyğənbər yurduna.

Məktəbin başlanmasından 20 gün tez çatdı. Ən böyük arzusunu, Həcc ziyarətini başa vurmağı ön plana çəkdi. Bu, 1 dekabr 1911-ci il tarixə düşdü. Ziyarəti bitirib, Nəcəfi- Əşrəfə yollandı. Sənədlərini verib, yer-yurd aldı. Yaxşı məktub hazırlayıb, Hacı Dəmir kişi ilə atasına yolladı.

Məktubda anasına olan hissədə 8-ci əsrdə salınmış İmam Əlinin (Ə) qəbri olan yer adlanan Nəcəf şəhərinin gözəlliyindən, Həzrəti Əlinin (Ə) məscid məqbərəsindən, məqbərənin 525 kv metirlik namaz zalından, iki minarənin zövqlə qızıl və gümüşdən bəzədilməsindən xeyli yazmışdı. Bilirdi, anası əzizləyəcək bu məktubu, qoynunda saxlayacaq bu ilk məktubu. Onu bilmirdi ki,bu ilk məktuba meşin üzlük çəkəcək və boynundan asacaq.

## NƏCƏF - ƏŞRƏFDƏ

Artıq bir neçə gün idi ki, Mirməhəmmədtağı görmədiyi mənzərələrlə qarşılaşır, ərəb torpaqları, yurdları ilə tanış olur, bütün ərəb tiklilərini zövqlə süzür-

dü. Xüsusi ilə Həzrəti Əli (Ə) məqbərəsini çox yaxından. Ətrafına dolanır, bu məqbərənin işığından, zinyətli daş-qaşa bənzəməsindən, onun 32 metirlik hündürlüyündən heyrətə gəlmişdi. Ürəyində İmam Əliyə (Ə) qarşı elə məhəbbət yaranmışdı ki, 30 il də vətəndən kənarda qalsa belə, bu sevgidən doymamış ayrıla bilməzdi. Məqsədinə çatmaq üçün bu gün mütləq İmamın qəbrinə ziyarət edəcək və qəbirdən öpəcəkdi. Belə də oldu. İçəri keçməzdən əvvəl icazə duası oxudu. Sonra içəri keçdi. İçəridəki işıq bu gəncin nurlu üzünə düşdü. İslam sevgisi onu öz işığında oyadırdı. Gəzdi məqbərəni, 525 kv. m-lik namaz zalına baxdı. Öyündü öz dini ilə, öyündü "Qurani Kərim"lə, öyündü Mirməhəmmədtağı Peyğənbərlə, özünün saf ürəyi ilə. Çox gəzdi buranı. Yadına düşdü ki, Kufədə imamın öz evi saxlanılır. Gərək ora da getsin , gərək imamlar gəzən o yurdu öz gözləriilə görsün.

Səhər çox erkən oyanıb namaz qıldı. Əlkufəyə yola düşdü. Ordan 10 km -dən çox yolu piyada gedəcəkdi. Yol yoldaşı çox oldu. Söhbət edə-edə Kufəyə çatdılar. Yüngül dincəlib, yolda bir Kufəli ilə dil tapıb sevdirmişdi özünü. Elə Kufəli Hüseyn ibn Xəyyamı da sevmişdi. Allah yad qonağa qarşı Hüseyn ibn Xəyyamda çox gözəl fikir yaratmışdı. Əvvəl Kufə məscidinə gedib, həm ziyarət etdilər, həm də namaz qıldılar. Sonra bir sıra tarixi yerlərə baxdılar. Həzrət Əlinin (Ə) şəhid olduğu mehrab isə Mirməhəmmədtağıya çox kövrəklik gətirdi. Ağladı burda, əlini qoynuna qoydu. Ağladı, ağladı. Dua verib

ayrıldılar. Həzrət Əlinin (Ə) evinə gəldilər. Həsən və Hüseyn yaşayan evə baxdılar. Sadə idi, çox sadə. Kasıb idi, çox kasıb. Ancaq evin içindəki su quyusu bu gün də su ilə deyərdin ki, dolu idi. Hamı sudan içib, sərinləşir, sonra dəstəmaz alırdılar. Qablarını su ilə doldurub "imamların xeyratına," - deyib dua oxuyurdular. Burada olan hər kəs bu böyük insanın sadə həyat tərzinə baxıb içərisini təmizləyirdi. Buranı görənlər dünya malına olan hərislikdən çəkinir, gözəl mənəvi düşüncələrə dalırdı.

İmam Əlinin (Ə) xəlifəlik dövrü 656 - 661-ci ( h.q 36-40 ) illərdə beş il Kufədə olmşdur. (Yəni Kufə İslam xilafətin xəlifəliyin mərkəzi olmuşdur.) Ağa həm də öyrəndi ki, İslamın əsas cərəyanlarından olan Xəvaricilərin göndərdiyi Əbdürrəhman ibn Mülcəm tərəfindən namaz qılarkən İmam Əli (Ə) öldürülmüşdür. İmam Əli (Ə) öldürülən mehrabı görən Mirməhəmmədtağı onun yaşadığı kimi yaşayacağına, İslam dininin tələblərini yerinə yetirən bir ömür sürməyə, Həzrət Əlinin (Ə) qəbri üstə özünə söz verdi.

İki gün Kufəli dostu Hüseyn ibn Xəyyamın evində qaldı. Kufə mədrəsələrində oxuyan başı sarıqlı tələbələrlə dostluq etdi. Bu geyimi geyəcəyi günə tələsdi. Bu geyim insanı işıqlı göstərirdi. Bütün bunlar Mirməhəmmədtağıda böyük qürur, inam yaratdı. Bu yolda var-dövləti olan əziz canını qoyacağına söz verdi.

İlahiyyat elminin çoxsahəliliyi, onun xüsusi ilə bütün elm sahələri ilə əlaqəsi dörd il idi ki, Mirməhəm-mədtağını heyran qoymuşdu. Öyrənirdi bu elmləri, çox

maraqla öyrənirdi. Öyrənirdi riyaziyyatı, fizikanı, kimyanı, tarixi, ədəbiyyatı, astarnomiyanı, xüsusi ilə tibbi. Yetişirdi insan kamalı, insan düşüncəsi. Aldığı bu biliklər şehin gülə-çiçəyə hopduğu kimi hopurdu bu cavan oğlanın canına. Bu biliklər ona nəcib xasiyyət, düzlük, ehtiram, susmaq, fikir yüyrütmək,islamı sevmək, ata - ananı, keçmişi sevmək, yaxınlara can yanırmaq, gücsüzlərə, qocalara, uşaqlara qayğı göstərmək, Allahın yaratdığı ilə xoş rəftar etmək, vətəni qorumaq hissi aşılayırdı. Özünü aldığı təhsilə görə xoşbəxt sayırdı. Vətən həsrəti nə qədər dəyərli idisə, aldığı biliklər ondan qat-qat ucada dururdu. İlahiyyat müəllimi Əl-Əzih-Fərrux bu cavan İslam balasına qayğı göstərir, onun düşüncəli hərəkətlərinə, səhvsiz vərdişinə, elmlərə fərasətlə yiyələnməsinə baxdıqca, onun gözlərində Mirməhəmmədtağı işıqlanırdı, nura dönürdü. Bir dəfə ondan soruşdu: - Dan ulduzu doğanda görmüsən?

- Bəli, müəllim, mən onun doğmasını seyr etməkdən doymuram. Qəribədi, hər dəfə bir cür doğur, işıqlanır, elə bil, bu gəliş üçün o, 24 saat hazırlaşır.

Birdən nə isə fikirə daldı.

- Nə fikirləşdin?

- Müəllim, atam söyləyirdi ki, mən dünyaya Dan ulduzu doğanda gəlmişəm. Bunu atam özü seyr edib.

- Çox yerdə dedim bu sözü. İndi mənə hər şey aydın oldu,- deyən müəllim fikrində bu gəncdəki işıq, gözəllək, bir də daxili aləmindəki təmizlik aydın oldu. Əl-Əziz-Fərrux əvvəl fikirləşirdi ki, bu gəncin vətəni nə

qədər gözəldr ki, belə oğul yetişdirib.- Bilirsən, mənim balam, sənin vətənini görsəydim, necə xoşbəxt olardım. Amma uzaqdı, bu mümkün deyil.

- Müəllim, Azərbaycan ümumilikdə gözəllkdən başqa bir şey deyil. Mənim vətənimi - Azərbaycanı Yaradan ən xoş günündə yaratmışdır. Dünyanın bütün meyvələri, bağ, bostan bitkiləri, gülləri - çiçəkləri, ağacları, təbiətə rənbərəng şəkil çəkən 4 fəsil, daş qayalardan çıxan bulaqları cəm olub bura. Bu bulaqların bəzisi yerin altından qaynar çıxır. Dağlarında və düzlərində vəhşi çöl heyvanları, kəl, keçi, ceyran, cüyür, maral oynayır. Dünyanın elə bitkisi yoxdur ki, o, Azərbaycanda bitməsin. İnsanları sağlam və gümrahdır. Bu yerin otları, çiçəkləri insanı ölümün əlindən alan dərmandır. Təəssüflər olsun ki, mən vətənim haqqında çox az şey bilirəm.

- Neft varmı Azərbaycanda?

- Bəli, müəllim, hazırda dünya ölkələrinin gözü mənim vətənimin neftindədir.

- Deyəsən əsəbləşdin.

- Bəli, müəllim, necə əsəbləşməyim? Dünyanı yaradan yaradanda hər yerə hər nemət verib. İnsanlara da istifadə et, yaşa deyib. Bu, hərənin öz payıdır. Güclü gücsüzdən payın necə almalıdır? Vətənim bax, indi belə çətinlikdədir.

- Mən səni çox bəyənirəm. İndi həm Vətənin Azərbaycanı, həm də sənin camalını, nur salan ürəyini çox sevdim. Yaradan sənə yazdığı ömrü mənalı versin, mənim sevimli tələbəm, - dedi və kövrəldi.

Müəllimin əlini öpüb, ayrıldı ondan. Yadına düşən vətən -Şamaxı sıxdı onu, öz otağına gəldi. Yatmaq istəd. Yatdı. Yuxuda Baba dağın gördu. Ordan Azərbaycana baxırdı və gülümsəyirdi…

“Bura mənim vətənimdir,”- deyirdi.

Oyananda dincəlmişdi. Qəhərləndiyi üçün narazı qaldı özündən, çox narazı. Narazı qaldı ki, burdan vətənə elm aparacaqdı. Niyə qəhərlənirəm? Bu mədəni tam doldurmaq üçün hələ 8 il irəlidə vaxt var. Bu yolu həvəslə getmək lazımdır, yoxsa, yorularsan,- deyib- gülümsüdü və tez də axşam namazına hazırlıq görmək fikrinə düşdü.

## VƏTƏN ÇAĞIRIR

Cəmi 3 gündən sonra yola düşəcəkdi Mirməhəm-mədtağı Vətənə. Çöhrəsi açılmışdı. Gülürdü üzü. Elmini tamamlamış, tam bitirmişdi. İndi onun cisminə ilahiyyat elmi gözəl naxışlar tökmüşdü. Özü də xeyli dəyişmişdi, lap xeyli dəyşişdi. Bığ yeri yenicə tərləyən, yeniyetmə kimi Nəcəfə gələn Seyid oğlu, boylu-buxunlu, üzündə xətt saxlayan cavan, cüssəli , igid oğlan olmuşdu. Qollarının gücündən başqa, bilik gücü də bu gəncə arxa, dayaq dururdu. Öyünmürdü heç biri ilə. Daha da dili şirinləşmişdi, daha da qəlbi zərifləşmişdi.

Son hazırlıq gördüyü günlərdə adını daşıdığı imam Mühəmmədtağının qəbrini ziyarət etmək fikrinə

düşmüşdü. Özünün iki yaxın dostunu da götürüb Mədinə şəhərinə yola düşdü.

Mədnənin əvvəlki adının Yəsrib olması, peyğənbərin 622-ci ildə Məkkədən bura köçməsi, islam dininin təməlini burda inişaf etdirməsi, müsəlmanların iki müqəddəs şəhərindən biri olması, Məhəmməd peyğənbərin(s.) ölümündən sonra Mədinətüməbi (Peyğənbər şəhəri) adlanması, sonralar qısaldılmış Mədinə şəhəri kimi tarixdə qalması barədə, şəhər haqqında məlumatı çoxdan var idi, seyid oğlunun. Burada olanda yoldşları ilə birlikdə həm peyğəmbərin qəbrini, həm də orada uyuyan İmam Həsən-in, İmam Zeynalabdinin, İmam Mühəmməd Baqirin, İmam Cəfər Sadiqin, İmam Mühəmmədtəqinin qəbrlərini də ziyarət etdilər.

Üç gündən sonra yenə Nəcəfi Əşrəfə  yollandılar. Çox yüngül gedib gəldilər. Özlərini səfər üçün  xoşbəxt saydılar. Yoldaşları Mirməhəmmədtağıya səbəbkar olduğu üçün minnətdarlıq  edirdilər.

Azərbaycandan bu ağır təhsil ilinə dözüb, təhsilini axıra vuran  üç nəfər oldu. Hər üçü sevimli müəllimlərindən, oxuduqlrı bu dini  ilahiyyat ocağından minnətdarlıqla ayrıldılar. İrana gələn karvana qoşuldular. Vətən hər üçünü çəkirdi. Piyda yolda karvan bu gənclərlə bəzən ayaqlaşmırdı. Sanki uçurdlar hər üçüİranda bir həftə qalıb dincəldlər. Təbriz onları sanki oxşayırdı. Bəli, oxşayırdı  Təbriz onları, bəli, sevirdi Təbriz onları. Qonaq kimi saxladı. Bir həftədən sonra hər üçü yola düşəcəkdi. Mirməhəmmədtağı daha bir təşəbbüs irəli sürdü.

- Gəlin İmam Rzanın da qəbrini ziyarət edək.

Yoldaşları onun bu təklifini də sevinclə qarşıladılar. Xorasana yola düşdülər. Ziyarəti Məşhəddə bitirib geri dönəndə, yenə Mirməhəmmədtağı yoldaşlarına bildirdi ki,mən bir daha iki il qalıb burada Məşhəd şəhərində ali ruhani məktəbdə oxumaq istəyirəm. Sənədlərimi ora verirəm. Onunla birgə Bakının Zirə kəndinində olan yoldaşı da sənədlərini məktəbə verdi. Təbrizə qayıdıb, vətənə dönmək üçün hazırlıq gördülər.

***

Qohum - əqrəba qarşılamağa çoxdan hazırlaşmışdı Mirməhəmmədtağını. Xəbərsiz gəldi. Özü bilərəkdən, çox səs-küy olmasın deyə tor qarışanda Şamaxıya girdi.

Şəhər kənarında faytondan düşüb, şeylərini götürdü. Ağır yükü kitab idi. Şaxəndan qəbristanlığından şəhərə boylandı. Şəhərin ocaq tüstüsü gecənin düşdüyünü bildirsə də , əsl ikindi namazının vaxtı idi. Canamazın çıxarıb  Qozlu çaya endi və sərin Şamaxı suyu ilə dəstəmaz aldı. Qayıdıb ikindi namazını qıldı. Bir də Şamaxıya baxıb salamatlıq duası oxudu:

"Allahummə inni əsəlukələfvə vəl fiyətə fid -  dunya vəl axirəti. Rəbbəna vəqina əzəbənnar."

***

Şah küçə ilə evlərinə doğru  irəlilədi. Qapıda dayandı. Evdəki səsləri dinlədi, tanımaq istədi. Atasının

səsini eşitmək istədi. Yox, eşitmədi.

- Ana, - dedi,- şirin dedi ana sözün, şirin dedi ana kəlməsin, titrəyə - titrəyə dedi.

Bayıra çıxan oğlan uşağı:

- Nənə səni çağırırlar - dedi.

Mirnemət bayıra çıxdı, cüssəli bir gənc sezilirdi.

- Kimi istəyirsən?

- Allah qonağıyam.

- Buyurun. Bura özü elə Allah evidir də.



**Hacı ağa 1925-ci ilin fotosu**

Özünü saxlaya bilmədi.

Mirməhəmmədtağı:

- Qardaş - deyib, əlindəki şeyləri yerə atdı.

-Mənim ağam, qardaşım - deyib, - sarıldılar bir - birinin boynuna

Evə qaçan uşaq “əmim gəldi”, - dedi. Ara qarışdı. Hamı Hacının boynuna sarıldı. Məşədi Ziniyət, “balam”,- dedi və iki oğlunu birdən qucağladı. Qonşular gəldi.

- Ağam hanı? - deyən Mirməhəmmədtağı səksəndi.

- Məsciddədi, indi gələr, - cavabını şübhəli aldı.

Ayaqyalın qaçdı məscidə. Qarşısına çıxan molladan “ağam hardadı? Mirmehdi ağanı deyirəm” deyib soruşdu.

Molla onu başa düşmədiyi üçün qəbri göstərdi.

Üzü üstə qəbrin üstünə yıxıldı. Nitqi kəsildi.Təkcə "ağam, ağam, ağam" sözləri eşidilirdi. Qardaşları Mirnemət, Mirzeynalabdin özlərini yetirdilər.

Qucaqladılar qardaşlarını, qucaqladılar soyuq qəbr daşını. Ağladı hər üçü. Ağladı. Bütün məscid mollaları, bir də bu mənzərənin şahidi olanlar. Gələnlər Mirməhəmmədtağının boynuna sarıldı. Öpdülər onun üzündən, öpdülər əlindən.Əzizlədilər onu.

Artdı dərdi, artdı fikirləri. Bildi ki, dağı uçub, bildi ki, dayağı uçub, bildi ki, səbrə ehtiyacı var.

Qırx cüz Quran oxuyub, atasının ruhuna bağışladı. Çəkdiyi ata zəhmətinin halallığını yuxuda gördüyü ata ruhundan aldı.



**Hacı Ağa Nəcəfi - Əşrəfdə təhsil illərində**

İndi, ana ürəyinə sığınan məsləhət mücrüsü, “o ürək bəsimdi” - dedi. Əmanətini aparan yaradana şükür etdi Mirməhəmmədtağı.

## ŞAMAXIDA ERMƏNİ QIRĞINI

1918-ci ilin mart ayında Bakıdan bəri xüsusi planla hərəkət edən müsəlman qanına susamış qəddar erməni qaniçənləri Şamaxıya yaxınlaşdı. Bunlar özlərinə yaxın rus və malağan xaçpərəstlərini də başlarına toplayaraq, Şamaxıya soxuldular. Əvvəl şəhərin başbilənləri ilə edilən söhbət zamanı bildirildi ki, biz Rusiyadakı inqilabi recimə qarşı Zaqafqaziya birliyi yaradırıq. Şəhərə soxulandan sonra, əhaliyə heç bir aman vermədən qırmağa başladılar. Bu qırğını kecə - gündüz ara vermədən apardılar. Əhali silahsız idi. Düşmən də itki vermədən xain qurd kimi insanlara divan tuturdu. İnsanları odda yandırır, qılıncdan keçirir, hündür binalardan tullayırdılar. Bütün bunlar erməni gülləsinə qənaət etmək məqsədi daşıyırdı. Bu qırğında 10 minlərlə ailə fəlakətin dadını daddı.

Belə ailələrdən biri də Rzaquluyevlər ailəsi idi .Rza kişini xəncərlə budadılar ki, get uşaqlarını gətir. Gətirmədi. Həyat yoldaşını ondan da faciəli öldürdülər. Üç körpə qızı qaldı. Qardaşı öz uşaqlarını və Rza kişinin üç qızını arabaya qoyub Göylər istiqamətində aparıb gizlətmişdi. Gecəni gözləyirdi, qaçmağa. Gecə çox qara gəldi Şamaxı üçün. Ay bilərəkdən gizlənmişdi. İnsan

naləsindən ulduzlar qaçıb buludların altına girmişdi. Kəlaxana yalında qurdlar ağız-ağıza verib ulayırdı. Şəhər yanır, insan bağırtısı Göylər kəndində eşidilirdi. Hamı qaçırdı. Hərə öz canını götürüb qaçırdı. Ağaqulu kişi də arabanı qoşub Göylər üstünə sürdü. El dolu idi yolda. Uşaqlara “bərk oturun” dedi. Onda Suranın ilk dişi düşmüşdü. Deməli, yeddi yaşı tamam olurdu. Birdən üç yaşlı bacısının arabadan düşdüyünü gördi. Sürünüb əmisinə yaxınlaşdı. “Əmi, ay əmi - deyə ətəyini dartdı - Bacım düşdü arabadan”. Kişi arabanı saxlayıb, geri döndü. Arxadan gələnlər: - A kişi, erməni gəlir, dalımızca, uşaqları qaçır - dedilər.

Bəli, Rza kişinin balaca qızı da beləcə yoxa çıxdı, itdi.

Ağaqulu aprelin axırında gəlib Xorasana çatdı. “Ağam”, deyib, İmam Rzanın qəbri üstə yıxıldı. Nə qədər ağladı bilmirəm. Yetimlər üçün ruzu istədi imamdan.

Bir neçə gündən sonra sığınacaq tapdı. Arabası, iki atı köməyinə çatdı. İşlədi, beş uşağı saxlamağa başladı. Şamaxıdan xəbər tutdu, yoldaşı, qardaşı arvadı ilə qəddarlıqla öldürülmüşdü. Daha hara dönsün? O müsibəti necə yaşasın? Bəli, dönmədi geri. Arabasına əl gəzdirib işlədi, yük daşıdı. Çörək qazandı. Uşaqları ac qoymadı. Bəli, Ağaqulu yaşadı, bu beş yetimi də yaşatdı.

# YENƏ TƏHSİL ARZUSU

1924-ci ilin qışı xoş keçirdi. Çox xoş. Bəziləri evdə heç qış sobası da qoymamışdı. Bu xoş il ağaya xoş arzu gətirdi. Ağa fikrini tamam topladı. Anasına danışdı:

- Mən təhsilimi tamamlamaq üçün Məşhədə getməliyəm. Nəcəfi-Əşrəfdən qayıdanda sənədlərimi o ali ruhani mədrəsəsinə verib gəlmişəm. Ana, bilirəm dünya çox qarışıqdı. Çətin və ağır zamandı. Ancaq ulu babalarım mənə arxa durar, mən də təhsilimi tamamlayaram. Yoldaşlarım indi oradadı. Burda hansı dövlət olsa ona təhsilli insan lazımdır. Qardaşlarımı yola gətir, ana. Qoy izn versinlər; mən gedim" - dedi.

Ana fikirdə idi. Dünya onu yaman oynadırdı. "Hardasan, ay Ağam Mirmehdi,-dedi. Gəl, bu işıqlı balana yol göstər. Bu işıqlı balana xeyir - dua ver,"- dedi. Beləcə başını yastığa qoydu. Yuxu bu çətin zamandakı çətin məsləhəti də özü ilə götürüb getdi.

Zinyət arvad dik qalxıb yerin içində otrdu. Mirmehdi ağa əynində uzun əba gəlib qapıda durmuşdu. "Tələsirəm, Məşədi Zinyət, Mirməhəmmədtağını çağır. Ona xeyir- duam var. Qoy getsin, məni məsciddə gözləyirlər,"- dedi və yox oldu.

- Ay aman, bu nə yuxudu gördüm? Nə tez əyan olub? Çox sağ ol, ağa, yükü mənim boynumdan götürdün. İşıqlı balana yola düşmək üçün xeyir-dua verdin,- dedi.

Çətinliyi, ayrılığı elə indicə gördü, gücü gözlərinə verdi. Nə qədər ağladı bilmirəm? Nə vaxt yatdı, bilmirəm. Təkcə onu bilirəm ki, səhər namazında Allaha dualar oxuyub, işıqlı oğluna uğurlu yol arzuladı.

***

İki ay idi ki, dərslər başlanmışdı. Yoldaşları da gəlmişdi. Hər şey qaydasında idi. Yenidən ilahiyyat elminə qovuşub, bu elmin gözəl dünyasında yaşayırdı, Ağanın fikri, dərdi yalnız anası idi. Onu "birdəfəlik qurtardım,-deyib, sevindirəcəyi günü arzulayırıdı. Dünən qaçqında canını və beş yetimi Şamaxıdan götürüb qaçan Ağaqulu kişi ilə tanış olmuşdu. Kişi onu oxşatmışdı və soruşmuşdu. Ağa da Ağaqulunu tanıyanda, elə bil bütün Xorasanı arxa tapmışdı. Ağaqulu kişi buraxmadı Ağanı. Elə hey Şamaxıdan Mirmehdi ağadan danışırdı. Danışırdı Ağaqulu kişi.

Şəxsiyyətinə hörmət edib, səliqə ilə geyinən Mirməhəmmədtağı, özünəməxsus xətt saxlamışdı. Geyim, vicud ona əsl gözəllik bəxş etmişdi. Çay gətirən böyük qız Ağanın diqqətini cəlb etmişdi. Ailələrinin faciəsini danışmışdı Ağaqul kişi. Bir də danışmışdı ki, ölümdən qorxmur. Ondan qorxur ki, bu uşaqlar burda, bu qərib eldə, mən ölsəm, necə olarlar?

Vaxtımdı, evlənməliyəm. Bu qızı alsam daha yaxşı olar. Vətən kəsiyidi. Elinə qayıtsa ata - anasının ruhu sevinər. Babalarım qəribə dayaq olmağa görə məni xoş niyyətlə seyr edərlər. Ancaq necə edim? Anamdan, xeyir-dua almalıyam.

Sura ikinci çayı gətirəndə baxışları bir- birini tutdu. Gülümsədi Sura. Ağanın da üzünə xoş bir işıq gəldi. Ağaqulu bu işığı görəndə titrədi. Allah, nə işıqdı?- dedi.

- Heç yadıma düşmür, məni gözləyirlər,- deyib ayağa qalxdı. Mirməhəmmədtağı da qalxdı. Birgə getdilər. Gedən Ağanın cismi idi, ürəyi, xoş niyyəti, bir də ürəyindəki ümüdləri bu evdə, bir otaqlı komada qaldı.

Bu ümüd günəşdən güclü bir işıq və sevinc gətirəcəkdi bu evə.

## AİLƏ HƏVƏSİ

Ağa anasına yazdığı məktuba heç bir ay keçmədi ki, cavab aldı. Məktubu oxumurdu. Əridirdi ürəyində. Sevinirdi desəm, azdı. Çox azdı. Sura onun gözləri qarşısında yenə çay gətirirdi. Yenə sevinirdi. Xəyallar Ağanı oynadırdı. “Heç nə olmaz. Dolanaram. Bir də ev taparam. Hamıya xoş olar. Açaram fikrimi Ağaqulu kişiyə. Nə deyər, deyər. Nə desə dözəcəm. Elə özüm açacağam fikrimi, elə özüm deyəcəyəm. Qoy babalarım mənə dayaq olsun”.

Yaman fikirli idi Məşədi Zinyət. Ev başına toylu görünürdü. Hara baxırdısa bəstəboy, qırmızı geyimli gəlin görürdü evdə. Bilmirdi gəlnin adın, bilmirdi gəlinin xasiyyətin. Ancaq yalvarırdı ona. Darlıq edən evi buraxıb, həyətə düşəndə də, qonşuya keçəndə də, balalarınınn evinə gedəndə də ürəyndə gəzdirirdi bu gəlini;sanki balalarından çox istəyirdi onu. Bəlkə də elə

olacaq. Qoy olsun. Ailədə elə bu da bir xoşbəxtlikdir. Bəzən özü ilə danışırdı Zinyət ana. Mirməhəmmədtağı ilə bir yerdə görəndə xəyalında yalvarırdı onlara. Bilirdi ki, işıqlı balası ilə xoşbəxt olacaq bu gəlin, xoşbəxt olacaq.

Ananın belə günləri neçə il keçdi bilmirəm. Onu bilirəm ki, Mirməhəmmədtağı özünün gərib səltənətində, bir otaqlı evində çox rahat yaşayırdı.

Tələbəlik günləri daha ona çətinlik göstərmirdi. Otağı gəlin gələndən işığa gəlmişdi. Tez - tez yuxuda Şamaxıda olurdu. Öpürdü bu torpağı. Atası yatan məsciddə namaz qılırdı yuxularında.

Toylarından 3 gün sonra hər ikisi İmam Rzanın qəbrini ziyarət etdilər. Bu ziyarət güvəndikləri, valideyn əvəzi bu ağadan xeyir-dua almaq məqsədi daşıyırdı. Ziyarətdən çıxanda Mirməhəmmədtağı gözləri önündə evləri, atası uyuyan məscid, bir də ağbirçək Məşədi Zinyət dururdu. Saxladı indi Məşədi Suranı. Dua edirdilər. Babalarının, atalarının ruhuna. Güldü üzləri, sevdilər dünyanı, sevdilər bir -birinə dayaq olan ömür yolunu.

Evə gələndə bu iki gözəllikdən evə şüa düşdü. Bu şüa ziyarətdən gələn iki açıq qəlbin şüası idi. Yəqin ki, bu şüa qəlblərdə ömürlük yaşayacaqdı. Bu, qəməri tarixi ilə 1924-cü ilin iyun ayının əvvəlinə təsadüf edirdi. Xorasan vilayətində hələ nurlu may yağışları davam edirdi.

1928-ci ilin qışı idi. Yanvar ayının soyuqları davam edirdi. Təbiət hələ də, hirsli baxışlarını çəkib getmək

fkrində deyildi. Əksinə, çillələr dəcəl oyunlarını ərköyün-əröyün oynadırdı. Mirməhəmmədtağı isə dərsini bitirmiş, imtahanlı günləri başlayırdı. Artıq xoş günü bu yaxınlarda görmüşdü. Höccətül İslam vəl Müslümin dərəcəsinə yüksəlmişdi. O gün çox xoş gün idi. Bütün müəllimləri, tələbələr, yaxın dostları, böyük üləmalar toplaşmışdı. Onu iki ayətulla irəli gətirdi. Hövzənin rəisi ayağa qalxdı. Qara əmmaməni onun başına sarıdı. Onun işıqlı siması daha da işıqlandı. Seyid olmasına görə, ona qara əmmamə vermişdilər. Sevimli müəllimləri ağanı bağrına basır, alnından öpürdülər. Axı bu dərəcəni əla qymətlə başa vurmuşdu. Onu mərceyi - təqlid və Ayətullah dərəcəsinə yüksəlməyi təklif etdilər:

- Yox, müəllim , gözü yolda anam var,- dedi - , bir də intizarda Ağam Mirmehdinin ruhu var, vətənimə - ora Şamaxıya dönəcəm.

Müəllimlər ona sovet recimindən danışmışdılar.

- Yox, vətən torpağına qismət olmağım bəsimdi, - deyib ağlamışdı.

Evə gələndə əmmaməli gəldi, Sura sevindi, 3 yaşlı Səkinə diqqətlə atasını süzdü və onun qucağına atıldı. Əmmaməni göstərib:

- Bu nədi ?- dedi.

Sualı cavabsız qaldı. Ata onu bağrına basıb öpdü-öpdü, sonra iki aylıq Xədicəni götürdü. Yuxarı qalxızdı. Alnından öpdü.

- Mənim əzizlərim,- dedi.

Kiçik pəncərədən buluddan qaçan günəş otağa işıq salmışdı. Bu işığı Mirməhəmmədtağı özü gördü və sevindi. Deyəsən qış yumşalır, indi yavaş - yavaş hazırlıq işləri görüm. Anama qovşmaq üçün ondan bir can almışdım . İndi dördünü aparıram,- dedi və güldü. Bu dəfə Sura sual verdi

- Niyə gülürsən?
- Heç, elə şey deyil.

Sevinmirdi, lovğalanmırdı. Elmilik insana şərəf gətirir, ancaq bu şərəfin içərisində sadəlik , mehrbanlıq yuva qurmasa, daxili qürur, insanı ləyaqət dərəcəsinə çatmağa qoymaz. Ağa bunların hamsını becərmişdi içərisində. Qürura aman verməyən elmi dünyagörüş onda səmimilik, düzlük, bir də ləyaqətini yüksəldən rəhimdillik duyğusu yetişdirmişdi.

Ailədə uğurlu həyata nəsib olmuşdu. Məşədi Sura kimi ailə qadını onun bəxtinə düşmüşdü. Artıq hər ikisi bir - birinin həyatına bələdçilik yolunu keçib qurtarmışdı. Mehriban ömür öz axarı ilə sakit səhər yeli kimi irəlləyirdi. Bu iki nəfəsdən Xədicə və Səkinə nəfəs alırdı.

- Məşəd, atam məni vətənə qayıtmağa yaman tələsdirir. Allahımdan kömək istəyirəm, havalar yaxşı keçsə Novruz bayramını Şamaxıda anamla keçirəcəyik. Ağalarımın ruhu yolda mənə dayaq olsun.

***

- Məşəd Sura, yuxumda Ağam Mirmehdi dedi ki, 19

martda Allah qoysa Şamaxıda olarsan.

- Ağam, niyə on doqquz martda,- deyib.

- Hə, on doqquz rəqəmi özü Quranda müqəddəs rəqəmdir.

- Niyə, izah edərsənmi?

- Bu qısa veriləsi cavab deyil. On doqquz müqəddəsliyi ilə bağlı 6-8 saat danışmaq lazımdır. Şamaxıda söyləyərəm. Bu gün işlərim daha çoxdur. Allah qoysa. Gecikmək olmaz, 3 gündən sonra yola düşürük.

***

Zinyət arvad səhər küçə qapısının başında sağsağan gördü. “Xeyir xəbər olasan” dedi. O, da sanki “hə”,- cavabı verib uçdu. Arvad hey çabalanırdı. Novruzda oğlunun gəlməsini gözləyirdi. 4-cü ilə keçirdi ki, oğul gözündən öpmürdü. Hazırlıq da görmüşdü. Mirzeynalabdinlə Mirnəhməd içəri keçdilər:

- Ay ana, nə çox işləyirsən? Dayan, qoy , biz də köməklik edək. Gəlinlər də gəlirlər. Sən get otur, buyur - cala, hər işi qoy özləri görsün.

- Ay balalarım, vallah, darıxıram. Nə edim, dinc dura bilmirəm. Ürəymə damıb , deyəsən bu gün gələcəklər.

- Hə, ana, mənim də ürəyimə damıb. Təki belə olsun. Axı deyirlər 19 müqəddəs rəqəmdi. Mirməhəmmədtağı bunu diqqətindən qaçırmaz. Gələcəklər.

- Mirnəhmət, sən bir az odun xırdala.

- Baş üstə, ana!

- Mirzeynal, sən də, bazara dəy, batman yarım düyü al, düyüyə görə üst- başın da al. Gələrlər, başımız qarışar.

- Baş üstə, ana.

- Ay qızlar, böyük samavarı gətirin, od atın. Günortadır, bilmək olmaz. Fatmaxanım, Seyidxanım niyə belə gec gəldilər.

- Gəlmişik, ay ana, bax burdayıq.

- A bala, siz də bir - iki güyüm su gətirin.

- Bu saat, ana.

- Tahirə, qızım, sən də təndiri sal. Gəlinlər xamırı kündələsin.

Xamır gəlib, ana, bu saat kündələyirik. Sən öz işində ol . Özümüz yayacağıq.

- Fətir də düzəldin ha.

- Baş üstə, ana.

Birdən qapıda səs - küy qalxdı. Məşədi Zinyət özünü çölə atdı. Hamı bir - birinə qarışdı. Qardaşını qara əmmamədə görən Mirnəhmət:

- Qurbanın olum,-dedi və boynuna sarıldı.

Məşədi Zinyət arvad kənarda dayanıb gəlini, uşaqları bir də qara əmmaməli oğlunu süzürdü. İçərisində çox güclü bir həyacan vardı. “Ay Mirmehdi, gəl, işıqlı balanın iştahatdarına bax. Gör sənin yolunu necə aparır. Sən gətirən əmmamədən birin də o gətirdi. Getdiyi yol, sənin yolundu. El ona baxır”. Birdən arvad özünə gəlib:

- Ay camaat, keçin içəri - dedi.

- Sağ ol, ay Məşədi Zinyət, gözün aydın,- deyən el, onu qabaqladı. Allah balanın işini avadn eləsin. Oxuduqları dadına çatsın. Sonra gələrik.

Hamı sərbirah oldu. Hal-əhval tutub, sevindilər. Gəlini Məşədi Zinyət evə aparıb, otaq tapşırdı. Qızıl üzüyünü mücrüdən çıxarıb, barmağına keçirtdi. Boyunbağını boynuna taxdı. Uşaqlar üçün əli ilə tikdiyi paltarı, o biri gəlinlərə verib,geyindirin,- dedi. Özü də qol açıb, gəlinə verdiyi otaqda fırlandı. Qızlar, gəlinlər də ona qoşuldu. Sevindilər. Həyət - baca gülməyə başladı. Yaraşdı gülmək.

Mirməhəmmədtağı da yolda başına gələnlərdən o biri otaqda kişilərə danışırdı.

Qalxdı ayağa.

- Gəlirəm - dedi. Bildilər ki, Mirməhəmmədtağı məscidə gedir. Atasının ruhu ilə görüşməyə. Məscidə çatanda məscidi bağlı gördü. Qapının üstündən aşdı o üzə, qamarladı qəbri. Toz basmış qəbri. İnsansız məscdə üz tutdu. Ağladı, hər iki ölü üçün. Ağladı. Daha dalınca gələn olmadı. Faatə verdi burdakı qəbirlərə, bir də insansız məscidə.

Aşdığı yerdən bayıra çıxdı. Gəldi evə . Arxadan dalınca gələn gördü. Tanımadı, qara geyimlini tanımadı. Evdə heç nə demədi. Bilirdi hamı…. Gecə yuxuda babasını gördü. “Canını qoru,”- dedi.

Ertəsi gün onu çağırdılar xüsusi idarəyə. Ağaya nə dedilər sirr oldu. O sirri özü ilə apardı Hacı ağa. 1978-ci ildə. Təkcə onu bilirəm ki, gətirdiyi kitablar dayaqlı

dost olmadı, bəla gətirə biəcək dost oldu. Həyətdə eşib basdırmadığı yer qalmadı kitabları. Gecələr onları çıxarır, oxuyur, əziz övladı kimi öpür, sonra da həyətdə yer qazıb basdırırdı. Gözü ətrafda, damda, barıda, qapıda ola-ola. Uzun çəkdi bu illər. Çox uzun çəkdi. 1960-cı illərdən sonra bu kitablar evə yığışdı. Hacı ağa əziyyət verdiyi üçün üzr istədi kitablardan.

***

Əziz oxucu, indi gəlin "Allahsızlıq qinişqası" paylanan, dövlətin dindən, dinin dövlətdən ayıldığı bir dövrdə, bu alim ilahiyyatçının həyatına nəzər sala- sala onunla yaşayaq. Elin gözündə, elin içində,Hacı ağanı görək. Oxucu dostum, əgər sən Hacı Ağanın əsl adını - Mirməhəmmədtağı adın onun yaxınlarından başqa , kimdən soruşsan, Şamaxılılar tanımazdılar. Onu Hacı Ağa kimi tanıyırlar.

Yeganə oğlu Ağamehdi müəllim və başqa yaxınları, eləcə də əksər şamaxılılar “ağam” deyib, qəlblərində bu insanı bu gündə yaşadırlar. Elə mən özüm də onun haqqında təqdiqata başlamazdan əvvəl, Hacı Ağa haqqında şamaxılılarla çox söhbətlər eşitmişdim. Lakin onun tədqiqi ilə məşğul olanda onun yaxınlarından başqa, usta Feyruzun, Məşədi Əlövsətin, polis işçisi Sadıqov İlhamın, gözəl ağsaqqal olan Əlqulu kişinin, Aydın kişinin, Qərib doktorun, hazırda din ziyalısı Hacı Teyyubun, ağanın qonşuları Ələvəz kişinin, Nadir kişinin və onlarla başqa şamaxılıların söhbətini eşidəndə bu insanların hər birinin

içində düzlükdən, etibardan, insani keyfiyyətlərdən nəsihət xəzinəsi tökülmüş qiymətli nemət gördüm.

Mənim ürəyimə Hacı Ağa bu araşdırma zamanı elə gözəl rişə verdi ki, indi onu yalnız mən duyuram. Əminəm ki, əziz oxucu, siz də bu insanın yaşadığı həyat nümunəsinə həsəd aparacaq, onun kimi yaşamağa, insanlara dayaq olmağa, düzlüyü həyatınıza çəpər etməyə çalışacaqsınız.

Onu da yazmağı borc bilirəm ki, bütün eşitdiklərimi heç bir bədii təsvirdən istifadə etmədən, ardıcıllıqla elə "Olanları çatdırıram" başlığı altında sizlərə təqdim edəcəyəm.

## OLANLARI ÇATDIRIRAM

Yeganə oğlu Ağayev Ağamehdi (İndi ona şamaxılılar “Ağa” deyə müraciət edirlər) 23 may 1947-ci ildə Şamaxı şəhərində anadan olmuşdur. Ailələri haqqında qısa belə məlumat verdi: - İki bacım Ağayeva Səkinə və Ağayeva Xədicə atam İranda, Məşhəd şəhərində təhsil alarkən orada anadan olmuşlar. Böyük bacım üç yaşında, ikinci bacım 6 aylıq olanda atam təhsilini tamamlayıb ailəsi ilə birlikdə, təqribən 1928-ci ildə Şamaxıya qayıdır. Sonra, Səfurə və Rəfiyyə anadan olurlar. Səfurə tibb işçisidir. Rəfiyyə isə ingilis dili müəllimidir. Sonrakı bacılarım Rübabə və Validə APİ-ni bitirib pedaqoci işçi olmuşlar.

Ağamehdi müəllim (Politexnik institunu bitirib, partiya və sovet işlərində işləmişdir) hazırda Ağasının ( Hacı

ağanı nəzərdə tuturam) dediyi kimi "Əlinizlə qazanın, ağzınızla yeyin" fikrini yaşadaraq, qurduğu şəxsi işi ilə məşğuldur.

Hacı ağanın şəxsiyyəti və şəxsi keyfiyyəti haqqında danışmağı xahiş etdim.

- Müəllim, el yaxşısın bilir. Eldən öyrənsən yaxşı olar,-dedi.

Mən də el gözündəki Hacı ağanı sizə təqdim edirəm.

Ağanın aydın baxışları vardı. Bu baxışlarda nurani bir dərketmə hər insana tez çatırdı. Boyundakı ucalıq, enliküräklik, boy çizgiləri ilə elə birləşirdi ki, sanki hər şey ölçüb-biçilmişdir. Yerişi təkəbbürdən, lovğalıqdan, öyünmədən, başqalarını yamsılamaqdan qat-qat uzaq idi. Dik və şax gəzməyi xoşlayırdı. Lakin irəliyə baxıb seyr etməyə, nişanlı baxıb görməyə qətiyyən meyl etməzdi. Tez salam verməyi özünə borc bilərdi, əgər geciksəydi salamı təmkinlə qəbul edib, əvəzində razılığını bildirərdi. Salamı keçici verənlərin xətrinə dəyməyən tərzdə, elə izah edərdi ki, insan heç vaxt o mənanı unutmazdı. Uzaqdan görəndə istər cavan, istərsə də yaşlı nəsil uşaq yanına müəllim gəlir kimi əlini cibindən çıxarar, üst-başını səliqəyə salar, salam verməyə hazırlaşardı. Heç vaxt onu tanımayan insanda özünə qarşı xoş hiss oyatmağa çalışmazdı. O, keçib gedəndən sonra onu tanımayanlar heyifsilənərdi ki, ağa ilə niyə yaxından ünsiyyətdə olmadı.

Yay-qış örtülü geyim xoşlayar, sadə geyinər, geyimində ardıcıllıq olardı, bütün paltarları, sanki ayaqqabıları ilə birlikdə bir-birini tamamlayardı.

Buxara papağı xoşlayar, həmişə səliqə ilə vurulmuş xətt saxlayardı. Evdə o dövrün araqçının qoyardı.

Uzaq Ağsu rayonunun Sanqalan kəndində yaşayan Balakişi baba söhbət edirdi ki, kənddə toy var idi. Məni kəbin kəsdirmək üçün Hacı ağanın yanına göndərdilər, onunla küçə qapısında rastlaşdım. Harasa gedirdi. Mənimlə mehriban görüşdü. Məqsədimi soruşmadan evə dəvət etdi. Çay, çörək təklif etdi. Niyə gəlmisən yox, mənə nə məsləhətin var?-deyib,- baş örtüyünü çıxartdı, dizi üstə qoydu, yaylığını sanki başını silirmiş kimi, sərinləşdirici tərzdə rahatlandı, yenə baş geyimini geyindi. Məqsədimi bildirəndə, dövlət kəbin vəsiqəsini istədi.

- Yoxdur, ağa.

- Niyə?

- 2 ay yaşı çatmır.

- Oğul, dövlət qanunlarının əleyhinə hərəkət etmək olmaz. Həmişə dövlət qanunları ilə din qanunları tənzimlənib. Mən bu işdə acizəm.

- Ağa, onda toyu saxlayaq?

- Yox, bunu kəndin və ailənin ağsaqqalları həll edə bilər.

- Sizin məsləhətiniz nədir?

- Qanun yol vermədiyi halda, kəbin kəsə bilmədiyim üçün, məsləhət verməkdə acizəm.

Ağa həmişə dövlət qanunlarına hörmətlə yanaşırdı. Qanun pozanlardan xoşu gəlməzdi. Halal çörəyi, şərəfi, ləyaqəti uca tutardı.

Ağsaqqallardan biri soruşur ki, ağa, şiə - sünnülük varmı? Varsa, bunun kökü hardan başlayır?

Təriqətçiliyi çox yaxşı bilən Hacı ağa ağsaqqala sualla cavab verir:

- Dostum, sən mənə üçüncü babanın adını söyləsən, mən sənə, o təriqətlər haqqında geniş danışacağam.

Ağsaqqal söyləyirdi ki, iki babamın adından o yana gedə bilmədim .

Ağa:- görürsən,-dedi,-keçmişi sadalayıb, axtarıb, hazırkı mehribançılığa, İslam birliyinə, düz olan düşüncə tərzinə ziyan vurmaq olmaz.

- Bax, belə olan anda keçmiş nəyimizə lazımdır? Gəncləri İslamın birliyi uğrunda tərbiyə etmək lazımdır. Bunun həm İslam birliyinə, həm də dinc yaşamaq tərzinə faydası çoxdur.

Bir olan Allah “Qurani Kərim” də bütün müsəlmanları birliyə çağırır (Lə təfərrəqu), parçalanıb, ayrılmayın fikrini İslamın əziz kitabı dəfələrlə təkrar edir. Peyğənbər qətiyyətlə bildirmişdir ki, kim təəssübkeşliyi irəli sürür - o, bizdən deyildir. Ona görə də şiə-sünnü məzhəblərini təbliğ etmək, yaymaq, insanları tərəfkeşliyə çağırmaq İslam qanunlarına ziddir,- deyib sözünü tamamladı.

Həmin ağsaqqal ağanın əlindən öpdü. Söhbət üçün razılığını bildirdi.

- Bir də yadınızda qalsın ki, insan düzlüyün tərəfində duranda, o, özü özündən təmizlənir. Ətrafındakılar onun çox yaxınlarına çevrilir. Hamı ona inanır, bu inamında böyük dağları əritməyə güc var.

# AĞIR GÜNLƏR

1930-cu illərdə represiya və mühacirətlər baş alıb gedirdi. Gecə yatırdın, səhər qonşunu tapmırdın. Pantürkizim, panislamizim ideyası azərbaycanlılara qənim kəsilmişdi. Ağanın da təhsili və dərəcəsi hamıya bəlli idi. Həm də xalq onu sevirdi. Əlbəttə, bu, hakim dairələrinə xoş gələ bilməzdi. Tutulanların sayı-hesabı Şamaxıda bəlli deyildi.

Bir gecə Hacı Ağanı da evdən apardılar. Şıx Ağanı, Molla Əlövsəti də orda görür. Nə etmək olardı? Haqqa inanan yox, göydən də qan tökülürdü.

Ağa on yeddi gün türmədə qalır. Bir axşam yatanda, üst paltarını soyunmur. Kamera yoldaşı soruşur:

- Ağa, niyə soynmursan?

- Məni bəlkə bu gecə buraxdılar - deyir.

Şıx Ağa gülür.

- Hər yer bağlanıb, saat 11-dir. Səni kim buraxar?

- Nitqimə belə gəldi.

Türmə nəçənnyinin oğlu qızdırma xəstəliyinə tutulur. O, ölümcül hala düşür. Gecə yuxuda nurlu bir qoca nəçənniyə deyir ki, sənin türməndə bir seyid yatır. Sən onu buraxmasan oğlun sağalmaz. Nəçənnik yuxudan hövlank ayılır. Uşağın qızdırmadan qovrulduğunu görür, anası da ağlayırdı. Tez paltarını geyinib, türməyə gəlir, saat 3-də yatmayan Hacı Ağanı çıxarıb buraxır.

Ağa sakitcə durub, Şıx Ağanın üzündən öpüb, bayıra çıxır.

Səhər Hacı Ağadan KQB-də izahat alıb, birdəfəlik buraxırlar. Ordakı insanlar bir də gəlmədi.

***

Hacı ağa Şamaxı şəhərindəki 1 May kolxozuna üzv yazılır, əmlak qoyur. Uzun müddət kolxozda bağban, sonralar isə anbardar işləyir.

## MƏŞHƏDİ SƏFURƏNİN YADINDA QALANLAR

Məşədi Səfurənin tibb bacısı işlədiyini, Hacı ağanın qızı olduğunu da bilirdim. Ancaq heç vaxt onların evində olmamışdım. Oğlu Vaqif müəllimin halal çörək qazandığını şamaxılılar hamısı bilir. Alicənablığı da öz yerində. Məşədi Səfurə yadında qalanları danışır.

Məşhədi Səfurədən ağası haqqında soruşanda duruxdu, elə o saat da onun gözləri doldu. Dinmədi. Sükuta getdi.

Mən onun cizgilərini seyr edəndə, ağadakı oxşar boy-buxun, ağ bəniz oxşarlığını diqqətimə yığdım. 70 yaşlı nənənin nə keçirdiyini yalnız özü duya bilərdi. Mən başa düşdüm ki, onun xəyalı Ağanın yurduna qayıtdı. O məhlə, o ev, o evin qabağındakı ağa oturan daş, onun girib-çıxdığı, gecə-gündüz Şamaxı üzünə açıq qalan

qapı dolxsunan gözlərində əriməyə başladı.

Ata qayğısı , ata nəvazişi, uşaqlıq ərköyünlüyü, Məşhədi Suralı günlər, yəqin ki, onu dilləndirməyə, mənə cavab verməyə vadar etdi:

- Ay qardaş , atamın bir günkü nümunəsi, o dövrün insanları üçün yazılı bir kitab idi. Əvvəl onu deyəcəm:- Ağam evdən çıxanda ləpirinə baxardıq. Küçəyə çıxınca onun ləpirini bölüşərdik. Bəzən üç, bəzən də 4 ləpir düşərdi payıma. Öpərdik onun ləpirini. Anam ləzzət alırdı, atamızı sevməyimizdən sevinirdi. O da bizim torpaq öpdüyümüz dodaqlarımızdan öpərdi, öpərdi. Ailəmizdəki bir -birimizə olan məhəbbət beləydi. Mən gəlin köçəndən sonra bizə tez-tez gəlirdi, Ağam Ağaqədirin xətrini çox istəyirdi. Seyidlik nəsli başına döndüyüm Ətağadan qohumluğu olan Ağaqədirə çox çatırdı. Bax, bu tutun altında onunçun hazırladığım çaynikdə çay dəmləyər, stəkan-nəlbəkidə çay verərdim. O, gedəndən sonra qab-qacağı yığıb, ayrı saxlayardım. Özü üçün qənd bişirtdirərdi, içməzdi dükan qəndini.

Söhbət əsasında “Hacı ağamın içdiyi qənddən indi sizə verirəm”, - dedi və verdi də. Mən də evdə tapşırdım ki, tütyədi bu qənd.

- Mən eşitmişəm ki, küçə qapısından keçənlər o açıb-örtən qapını öpüb keçirlərmiş.

- Doğru deyirsən, bizim küçəmiz işlək küçədir. Əvvəllər o küçədən keçən, Hacı ağanın evini tanıyan insanlar divarımıza əlini sürtər, qapımızdan öpərdilər. Hətta insanların dodaq izləri qapımızda aydın

görünərdi. Qapımızın hər tərəfindən aslı parçalar, saplar olardı. Hərə bir niyyətlə bağlayırdı o sapları, parça qırıqlarını. Elə indi də elədir. Elə indi də ağamın evi onun ən böyük yadıgarı kimi yaşayır Şamaxıda.

İli yadımda deyil. Ancaq yaxşı yadımdadı, əsgər yığırdılar. Atamı da apardılar. Faytonla getdilər. Mənim alnımdan iki dəfə öpdü. "Məşədi, uşaqlardan muğayat ol," -dedi.

Bir az gedib, faytona mindi. Dalınca bxdıq və ağladıq. Şaxəndanla Yeddigünbəz  arasında Mırtı yolu gedirdi. Yolda atam dərin bir ah çəkir. Nə qədər edirlər, atlar tərpənmir. Onlarla gedən böyük işi başa düşür. Ağamı yerə düşürür. Araba o saat tərpənir. Əsgərlərin böyüyü atamın əlindən öpüb, evə qaytarır.

O, evə gələndə sevindik.

- Məni aparmadılar,- dedi.

Xalçanın üstündə namazın qıldı və rahatlandı.

Bax, qardaş, öz qızım, Minirə bir gecə ağır xəstələndi. Ölüm-ölümdə idi. Mən uşağı  götürüb ağamın yanına apardım. O, yatmışdı, oyatdım.

- Ağa başuva dönüm, uşaq ölür,-deyib,-atdım ağanın ayaqları altına. Ağam uşağı qucağına aldı,başına əl çəkdi, əl məndən, səbəb Allahdan,-dedi.

Minirəni gətirdik evə. İndi onun bir qızı, bir oğlu var.

Gələndə pul paylayırdı bizə. Götürməzdik. "Götürün, bala, - deyərdi. - Saxlayın evdə. Üstünə pul gələr".

Blirsiniz də, gəlinim Gülzar həkimdir. Bu günlərdə evimizdə üç şadlıq olub. Nəvəm Ağaqədir həm əsgər gedir, həm də nişanlanıb, bu da nişan nəməridir.

Bəhruz isə insitituta girib. Hamsı ağamın kölgəsidi üstümüzdə. Bir də ağam bizə "əliniz qazansın, ağzınız yesin" deyib. Bəli, onda ömür yaşamaq istəyir. Necə deyib, elə də olur. Hamımız zəhmətimizin çörəyini yeyirik. Başqa çörəyi Allah nə bizə ruzi yazmaz, nə də yemərik.

Yola düşəndə ağanın şəklini gətirdi. Şəklə baxmaqdan doymrdum, acgözlüklə baxırdım. 1970-ci illərdə gördüyüm ağanın şəkil baxışını təzədən gözümdə təzələdim. Bu həyətə adi söhbət üçün getmişdim, yüngül getmişdim, görüşdən sonra ayrılarkən özümdə o qədər məsuliyyət hiss etdim ki,sanki bütün evi özümlə aparırdım. Çox ağır idi şələm. Allahdan özümə qüvvə dilədim. Qüvvə dilədim ki, ağanı elin gördüyü kimi, ağa nəslinin yaddaşında qaldığı kimi vəsf edə bilim.

Bu nitqi mənə göndərən də, bu yükü çəkməyə qüvvə verən də yaradandı. İnşallah.

## GET, ALLAH KÖMƏYİN OLSUN

Ustanın yanına işin qızğın vaxtında getdim. Mənimlə görüşüb, əlindəki işi yarımçıq qoydu. Söhbətə başlayanda söhbəti və fikrimi azdırmamaq üçün məqsədimi bildirdim ustaya. Əslən şamaxılı olan ustanın, qayğılı, insantanıyan baxışları, bir də gözəl yaddaşı vardı. Usta əlini üzünə gəzdirib, özünə məxsus başını silkələdi, o ki, var , ağırlaşdığını hiss etdim.

- Elə bu gecə ağanı yuxuda görmüşdüm,- dedi. Hacı

ağanın əli bütün Şamaxının üstündə olub, bu şəhərdə elə bir insan olmazdı ki, çətinə düşəndə ağadan məsləhət almasın və xeyir də tapmasın. Bir məhlədə yaşamışıq. Hamımıza nümunə idi bu kişi, özü demirdi mənim kimi edin, mənə baxın, xalq özü ondan nümunə götürürdü.

Ağır bir xəta çıxmışdı əlimdən, günahkar mən idim. Həbsdə idim. Cəzam idi çəkirdim. Ancaq məni narahat edən o idi ki, mənimlə günahsız adamlar da yatırdı. Onların günahı yox idi.

Bir axşam yatanda Hacı ağanı çağırdım, öz - özümə dedim ki, ay ağa, başıva dönüm, niyə bu haqsız yatan insanlara dayaq durmursan?

Yuxu məni apardı. Sabah üzü idi. Gördüm ki, mən Minəxurla üzü yuxarı çıxıram. O da üzü aşağı düşür. Görüşdük. “Firuz, oğlum,-dedi,-darıxma. Yaxşı olar. Elə lap yaxın günlərdə”... Yuxudan oyandım. Ağanın surəti durdu gözümün qabağında. Yalvardım xəyalımda ona. Səhər naharın edib işə gedirdik. Arxadan məni səslədilər. Bu türmənin KQB-si idi.

- Yanıma gələrsən, - dedi. Getdim soruşdu: "Ali Sovetə ərizə vermisiz?"

-- Bəli.

-- Get işə.

İş qurtarandan sonra yenə məni çağırdılar. Söhbət etdilər. İşimizi 10 ildən 4 ilə endirdilər, yoldaşımın birini də açıb buraxdılar. Səhəri gün iş icra olundu. O dar divarlar arasında yalvardım ağama. Gələndən sonra getdim yanına, əlindən öpmək istədim. Qoymadı.

\- Ay oğul, mənə hər şey ayan idi, - dedi və əlini kürəyimə apardı:

\- Get, Allah köməyin olsun!

***

Əliqulu kişi ilə Hacı ağanın kolxozda işlədiyini eşitmişdim. Odur ki , Əliqulu kişinin evinə üz tutdum.

Elə bil vədləşmişdik. Kişi evdə idi. Gözlənilməyən söhbəti açdım. Məni evə dəvət etdi. Oturduq. Qardaşı Aydın kişi elə o saat gəldi. Qonşu Soltan kişi də.

Söhbət qurtaranda bu insanların üzünə sanki nur çökmüşdü. Başa düşdüm ki, ağanın əməllərindən bu insanlar o qədər həvəslə danışdılar ki, özləri o günlərə qayıtdı. Ağalı günlər yaşadılar. Sanki içərilərində Hacı ağa ilə danışıb - gülürdülər. "Qoy onların ağalı dünyası yaşasın" deyə dediklərini yazıya köçürtdüm.

## KOLXOZDA BAYRAM

Çoxdankı küləkli, yağmursuz quraqlıq Şamaxını və Şirvanı zara gətirmişdi. Yer Allahdan imdad diləyirdi:

Yazın quraqlığı bu il Şirvanı heydən salmışdı.

Hamının zəhməti göz görə - görə günbəgün yanıb heçə dönürdü. Bütün yaradılanların əlacı Allahda idi.

May ayının 21-dən başlayan leysan yağışı ara vermədən yağır, yağdıqca yaradılanlar sudan doymur kimi ağızlarını açıb, sanki istəyirdilər verdiklərinə görə yaradana təvəqqe etsinlər. 3 günlük yağışdan ara tapan may günəşi mayın 23-də azca işıldadı. Hamı

çörəyini götürüb, işə - kolxoza getdilər. Sabir adına kolxoz beynəlmiləl idi. Cuhudlar, ermənilər, azərbaycanlılar bir yerdə çörək qazanınırdılar.

Birrikdə kimsə ucadan dedi:

-- Camaat, Hacı ağanın oğlu olub.

Hamı bir - birinə qarışdı. Cuhudlar daha çox əl-ayaq edir, sevinirdilər. Ağa anbardar işləyrdi. Camaatsa əlində nə varsa yerə tökdü:

- Bu gün iş yoxdu.

Sədr Şərfalı müəllim gəlib çıxdı. Hamı onun başına yığışdı. İdarə işçiləri də birliyin həyətinə toplaşdılar. “Bayram keçirəcəyik” Ağa səbirlə sədrə yanaşdı:

- Sədr, Belə hay - küy nəyə lazımdır? Sən camaata de ki, çıxıb işlərinə getsin: Bu, rayonda pis qarşılanar - dedi.

Sədr birliyin qarşısındakı 4 pilləkənli balkona çıxdı:

- Camaat, mən də sizin sevincinizə qoşuluram. Bu gün bizim ağanın - Allahın düz insanının davamçısı dünyaya gəlib, mən də sizə qoşuluram. Bu gün bayramdır. Ən yekə cöngələrdən birini kəsin, işi dayandırın, Allah özü üç gündür bütün yaratdıqlarına nur paylayır. Bizə nə düşüb? Bu gün bayramdır.

Xəlil kişi sədrin yanına çıxdı: - Camaat, sədrmizə mən sağ ol,- deyirəm. Səhər hamı iki iş norması işləyər. Bu gün bayram edəyin.

Ağa bir söz deyə bilmədi. İçəri öz otağına keçdi. Cöngə kəsildi. Qazanlar yan - yana düzüldü. Hamı qab - qacaq dalınca getdi. O gün hamı sevinir, ağanın əlindən öpməklə, sevincini bildirmək istəyirdi.

Günortadan onra sədri KQB - yə çağırdılar.

- Bu, gün nə bayramıdı?
--- Bu camaatın arzusudu.
--- Axı, nə olub?
--- Hacı kişinin oğlu olub.
--- Oğlu yox idi ağanın ?
--- Yox, altı qızı var idi.
--- Dur, get, heç kəsə bir söz demə. Özün də işində ol.

Elə o gün prokuror, KQB, milis rəisi bir-birindən gizlin ağanı təbrik etdilər. Birinci katib Səmədov isə kolxoza baş çəkmək adı ilə ağanı təbrik etməyə gəldi. Bu bayram el arasında uzun çəkdi.

## CUHUD ÇÖRƏYİ

***(Əliqulu kişinin dedikləri)***

O gün hamı yaxşı işləmişdi. Bunu seçmək o qədər də çətin deyildi. Çünki hamının kürəyində ağ köynəyi üstündə tərdən çökən duz ləkəsi hərənin necə işlədiyini aydın göstərirdi. Günorta naharı idi . Kolxozçular bir - birinə zarafat edə - edə süfrəsini açır, bir stəkan su içib, iştahla yeməyə girişirdilər. Guhud Niftəli də süfrəsini açıb, çörəyi ortaya qoydu.

Üzünü Hacı Ağaya tutub:

- Ağa, başıva dömüm, bozdamacdı. Mayalı çörəkdi. Sizin bozdamaclar kimi bunu da yağlatdırıb, duz və sumağla hazırlatmışam. Nə olar, bu çörəkdən kəsin!! - dedi.

Ağa əlini uzatdı. Çörəyi kəsdi.

Mən, ağaya yaxınlaşdım:

Ağa, nə edirsən?

- Ağa üzümdəki həyacanı görüb:

- Əliqulu, çörək nemətdir. O, Allahın ruzusudur. Onu yeyərlər - dedi.

İştahla çörəyi yedi.

Sonradan başa düşdüm. Cuhud ağaya çörək yeməyi elə sevinclə təklif etmişdi ki, ağa onun qəlbini sındırmamaq xatirinə iştahla onun çörəyindən yemişdi. Hamı bunu da bilirdi ki, ağa heç kimin, hətta öz qızlarının da nəinki xörəyin, çörəyin, hətta çayını da içmir.

## MƏNİM OĞURLUĞUM

Həmişəki kimi , bu gün də anbar açıq idi. Ağa nahara getmişdi. Mənə “göz-qulaq ol”, demişdi.

Papirosumuz yox idi. Hardansa, arpa alan gəldi. Uşaqlar başıma yığıldı. Cibimizi axtardıq. Pul yox idi. Mən “bu saat yol taparam”,- deyib, anbara keçdim. Bir meşok arpa doldurub, satdım.

Pulu uşaqlardan birinə verib, siqaret almağa göndərdim. Hamının siqareti oldu.

Səhəri gün işdə ağa ilə üz - üzə gələndə həyacandan qımışdım.

- Əliqulu, yenə dinc durmursan ha,- dedi.

Özümü itirdim və yalvarmağa başladım.

- Ağa, vallah, bircə meşok arpa satmışam.

## ANBARDA OĞURLUQ

***(Aydın kişinin dedikləri)***

Dünyamalı kişi ağıllı insan idi. Ağanı o qədər sevirdi ki, kişi anbara gələndə, ona tamaşa etməkdən doymurdu. Ağanın ağ bənizi, göyçək, nurlu üzü onu sevənlərə həm qorxu hissi, həm də ona qarşı bir sevgi hissi oyadırdı. Mən elə vaxt görməmişdim ki, ağa gələndə söhbət kəsilməsin, hərə öz işin dayandırmasın, bu ola bilməzdi. Çünkü ağanın salamını hamı almaq istəyirdi. İnsan o vaxt ululaşır ki, ona olan hörmət qorxudan deyil, ona olan məhəbbətdən yaransın. Ağaya bu el hörməti ağanın şəxsi nümunəsindən yaranmışdı.

İki gün əvvəl kolxoz üzvlərinə paylanmaq üçün 40 min pul götürmüşdü Ağa. Pulun bir hissəsini paylamışdı. Çoxları bilirdi ki, kassada pul var. Kimsə Dünyamalı kişinin qabaqda - xırmanda taxıla baxdığını bilib, anbarın arxasından 2 küşə daş çıxarmış və içəri girmişdi. Yalnız oğrular gedəndə, itlərin səsinə kişi anbarın arxasına keçir. Anbardan oğurluq olduğunu görür. Kişini ağlamaq tutur, nə tutur.

Sabaha kimi oğru keçən dəliyin ağzında oturub ağlayır.

- Ay ağa, vallah, məndə günah yoxdu, yatmamışdım.

Səhər yenicə açılmışdı ki, Aydın Dünyamalı kişinin gözünə dəydi.

- Aydın, Aydın, ay bala, bura gəl, başıma daş düşüb, ambara oğru girib,qaç ağaya de, bala!

Aydın atı birbaşa Hacı ağanın evinə sürür.Qapı açıq idi.Ağa həyətdə nəsə iş görürdü. Aydını qapıda görəndə ona sarı gəldi. Aydının nitqi tutuldu.

- Ağa, Ağa, Ağa, ambarı, ambar …

Kişi qapıda Aydının başına sığal çəkdi.

- Ağlama, hər işi bilirəm . Dünyamalıya de ki, heç şey apara bilməyiblər. Kişi qorxmasın, özüm də indi gələcəm.

Xəbər düşdü ki, ambara oğru girib, sədr Alşan İsgəndərov, prokuror, rəis gəldilər. Ağa anbarı açdı, prokurorla içəri keçdi. Düz toyuq yemi saxlanılan əmbizə sarı getdi. Əlini salıb, əmbizin içində ağ xalata bükülü pulu çıxartdı. Bayıra çıxdı:

- Camaat, yoldaş prokuror, yoldaş rəis, oğrular pula gəlib,onu da tapmayıb. 30 manat stolun daxilində xırda pul vardı, onu aparıblar. Xahiş edirəm, yazı-pozunu yığışdırın, oğrular cəzasız qalmayacaq.

Prokuror rəisə, “gedək” dedi. Ağa ilə xoş görüşüb getdilər.

Camaat, söz - sovu da yığışdırın, oğrular cəzalarına çatar. Hər iş məlum olacaq.

- Elə də oldu. Az vaxtda bir ailə tamam dağıldı, məhv oldu.

# ALMA İLAN OLUB

Ağa küçə qapısında oturmuşdu. Daşın üstə. Ağabala kişnin ona sarı gəldiyini gördəndə, yanındakılara:

- Ağabala kişidə iş var - dedi. .

Ağabala kişi çatıb, salam verdi. Ağanın əlindən öpmək istədi. Ağa qoymadı. Ağabala kişi:

- Ay ağa, başıva dönüm, anbardan cibimə uşaqlar üçün beş-on alma qoymuşdum. İndi əl atıram, ilandı,- deyib ağlamsındı.

Hacı Ağa əlini salıb almaları çıxrtdı. Gülümsədi:

- Almadı axı. Apar, ver uşaqlara , indi daha ilan olmaz. Ağabala, başqa yerdə danışma. Tərif sayağı söz demə, hökmət mənə göz qoyur.

# SƏDR ƏHVALATI

Artıq "Qırmızı dağlar", Sabir və 1 May kolxozlarını birləşdirib, 1 May kolxozunu yaratmışdılar. Bu kolxoz Şamaxı şəhəri üzrə olan yeganə kolxoz idi. Get - gedə rüşvət kiçik addımlarla irəlləyirdi. Kimsə kolxoza gələndə bir şey umurdu. Qoyundan, toyuqdan,baldan pay qoymaq dəbə düşürdü. Sədr Şərfalı müəllim çıxılmaz vəziyyətdə qalmışdı. Bütün təsərrüfatın məhsulları ambara daxil olmalı və orda saxlanmalı idi. Ambarda da, Hacı ağa. Ağa gündüz heç vaxt ambara qıfıl vurmazdı. Qapının ağzındakı mıxdan açarları asar,

qapançıya tapşırardı ki, qapını bağla. Nə məhsul qəbul edəndə qapana yaxın gəlməz, nə də kolxozçuların məhsulunu paylayanda çəkiyə baxmazdı. Məhsulunu götürməyə gələnin cədvəldəki çəisini deyərdi, bir də əlavə deyərdi ki, get qablarını doldur, çək apar.

Hamı elə də edərdi. Taxılını götürən yüngül çəkərdi ki, ağanın əskiyi gələr, ambara məhsul verəndə də ağır çəkərdilər ki, ağanın əskiyi gələr. Beləcə davam edirdi ağanın ambar işləri.

Yaxşı yadımdadı. Mən qapançı idim. Yanvar yoxlamasında 26 ton buğda və arpa artıq çıxdı. Ağa dedi ki, ambara təzədən taxıl qəbul edin və camaata paylayaq. Sədr Şərfalı müəllim xahiş etdi ki, ay ağa, başıva dönüm, qoy o taxılı sataq, kolxoza gəlib - gedənimiz olur.

Ağa çox səbirlə: - Şərfalı müəllim, nə mən, nə də siz ambra taxıl tökməmişik dedi, - Camaatın zəhmətidi, özlərinə də verək.

Sədr təkid edəndə ağa yenə səbirlə, "bu açar, bu də siz. Özünüz bilərsiz. Mən işləmirəm", - deyib, çıxıb evə getdi. Eşidənlər bikef oldu. Bir saatdan az keçmişdi ki, sədr məni çağırdı. İçəri keçəndə sədri qıc olmuş, ağzı əyilmiş, danışığı itmiş gördüm. Çatdım. Bilmədim ki, nə edim. Onu bildim ki, həkim istəyir.

Həkim gətirdik, sonra Bakıya apardılar. Heç bir müalicə təsir etmədi. Sədri ağsaqqallar başa salır ki, sən ağanın yanına get, üzr istə.

Sədr iki ağsaqqalla ağanın evinə gəlir. Həmişə açıq olan qapıdan iməkləyə - iməkləyə (diz - dizi) ağanın

həyatinə girir. Hacı ağa sədri qaldırır. - Şərfalı müəllim, ayağa dur, - deyir.

Qalxır. Ağa ona soldan bir şillə vurur, boynunu tumarlayıb başına əl çəkir. Ağlayan sədrin könlünü alıb, ona çay verir. Üç - dörd günə hər şey qaydasınca olur. Şərfalı müəllim sonradan nəql edirdi ki, Hacı ağadan aldığım nəsihət, halal mal, halal çörək nümunəsi məni uzun müddət təmiz saxladı. Lakin sonradan….

## HACI AĞANIN NƏSİHƏTİ

Bakıda, Təzəbazarda kolxozun yemişini satırdım. Axırda arayış alırdım ki,ucuz satmışam. Xeyli pul qazanırdım.

Hacı ağa məni yanına çağırdı: - Pulu kassaya vermisən. Çox yaxşı. Ancaq görürəm səhv yola düşmüsən. Yemişin pulundan…

- Hə, ağa, nə gizlədim, eləmişəm.

- Əliqulu, oğlum, bu çox pis işdir. Halallıq olmayan yerdə bərəkət olmaz. Belə işlərdə heç vaxt rahatlıq olmaz. Cəsarətli olmaq üçün düz olmaq lazımdır.

Əlini başıma çəkdi. Bayaqdan içimdə titrəyirdim. Rahatlandım. Sonra uzun müddət belə işlər etmədim.

***

Bizim kolxozda rus, cuhut, erməni, malakan azərbaycanlılarla yanaşı işləyirdilər. Hamı bizim dilimizlə Hacı ağaya Ağa deyirdi. Onun düzgünlüyü

hesabına hamı - sədr, mühasib, ferma müdürləri, briqadirlər düz işləyirdilər. Bu insanlar Ağaya heç vaxt yalan danışmazdılar. Kolxozumuzda əsl kommunizm idi. Hərə öz əməyinə görə pay götürürdü. Bir dəfə evdən çıxanda qızları Ağaya bir sıxım semişqa gətirməyə görə yalvarırlar. Ağa bir də evə qayıdır:

- Qızlarım, kolxozumuzun 500-dən çox üzvü var. Gərək hərəyə bir sıxım semişqa verim, sonra sizin üçün mən də gətirəm.

Bunu hamı bilirdi. Onun həyətindən tütyə götürən rus,cuhut, malakan çox görmüşəm.

Ağa 1937-ci ildə tutulanda izahat vermişdi ki, dövlət işlərinə heç vaxt müdaxilə etməyəcəm. Çünkü Sovetlər Hacı Ağanın el arasındakı hörmətindən xəbərdar idi.

***

Hacı ağa evdə, həyətdə başqasının işləməsini xoşlamazdı. “İnsan hər işi bacara bilər,- deyirdi”. Ona görə evdə dülgərlik, bənnalıq alətləri saxlayardı. Boş vaxtını ev, həyət işləri ilə keçirərdi. Həm də ağa bir ziyalı kimi ədəbiyyat, tarix, riyaziyyat,üquq elmlərini, coğrafiyanı, tibbi dərindən bilirdi.

***

Hacı ağadan soruşurlar ki, Şamaxıda ilahiyyat elmini dərindən bilən varmı?

- Bəli, bu Möhüb əfəndidir - deyir.

***

Şamaxı rayon partiya komitəsinin katibi S. Şəfiyev Hacı ağanı yanına çağırtdıdır. Respublika dini işlər idarəsinin işçisi də yanında olur. Ağanı çox böyük hörmətlə qarşılayan katib, bildirir ki, respublikada Höccətül İslam vəl Müslimin dərəcəsində olan yeganə ilahiyyatçı  sizsiz.

Şeyxülislam rəhmətə getmişdir. Sizə həmin vəzifəyə, yəni respublika Şeyxülislamı dini işlər idarəsinin rəisi vəzifəsinə dəvət edirlər.

Bakıda sizin rahat yaşamağınız üçün hər cür şəraitlə dövlət təmin edəcəkdir.

- Mən dövlət nəzarəti altında işləyəcəm, yoxsa, azad dini işlərlə məşğul olacam?

- Əlbəttə, dövlət nəzarətindən çıxmaq olmaz.

- Yox. Bu mənim işim deyil. İnciməyin, mən bacara bilmərəm, - deyir.

***

Hacı Teyyubun ziyalı nəslindən olduğunu bilirdim. İlahiyyat elmi haqqında də çox məlumatlı insan idi. Odur ki, Hacı ağa ilə bağlı bəzi məqamların açılmasında mənə kömək edəcəyinə əmin idim. Onunla görüşdüm. Başqa dəyərli məlumatlarla yanaşı bu mövznu da xatırladı.

# AĞANIN İŞDƏN ÇIXMASI

1 May kolxozunda ambar müdri işləyən Hacı Ağa sədr Şərfalı müəllimə ərizə ilə müraciət etdi ki, onu tutduğu bu məsul işdən götürsün. Daha yaşlanıb, özünü yorğun hesab edir. Sədr təkidlə bildirdi ki, ola bilməz. Səmədova deyərəm.

Sədr Səmədovla görüşəndə ona Ağanın sözlərini çatdırdı.

- Yox, Şərfalı, bu sənin öz işindi, - dedi. - Kişini incitmisən.

- Yoldaş katib, Ağanın öz cəddi haqqı özünün dediklərini deyirəm.

- Ola bilməz. Biz onu çıxarıb,… El bizə nə deyər? Kolxozu çətin illərdən keçirən Hacı ağa deyilmi?- dedi.

Şərfalı müəllim Səmədovun - katibin dediklərini Ağaya çatdırır.

- Özüm gedərəm yanına, - deyir.

Səhəri günü elə də edir. Pəncərədən ağanın gəlişini görən katib, onun qabağına kolidora çıxır. İçəri aparıb, kefini soruşur. Hal - əhval tutur. Ağa fikrini katibə bildirəndə:

— Yox, sənə ehtiyacımız var. Bir az da işlə - deyir katib.

— Yox,Səmədov, gücüm çatmır. Xahiş edirəm.

— Axı, biz kimik sizi işdən çıxaraq? Camaat nə deyər? Buna Şamaxı necə baxar!?

- Yoldaş Səmədov, mən iclasda camaatdan xahiş edərəm. Camaat məni eşidər.

- Gərək ümumi iclas olsun, - deyib, yenə Ağanın səhhəti ilə, xüsusi kefi ilə maraqlanandan sonra, düz küçəyə qədər Səmədov Ağanı ötürdü. Maşın təklif etdi. Hacı ağa razı olmadı.

Üç gündən sonra, ümumi iclas çağırıldı. Səmədov da gəlmişdi. Cınqırın  çəkən yox idi. Bilirdilər, çətin iş var. “Yəqin sədri çıxaracaq”, - deyənlər çox idi. Kimisi də katib gəlibsə, nəsə, böyük məsələdi deyirdi.

Katib xeyli danışandan sonra sözü Hacı ağaya verdi.

- Camaat, mənim iş yoldaşlarım, sevimli şamaxılılarım. Yaşlanmışam. Özümü yaxşı hiss etmirəm. Apardığım vəzifəyə daha gücüm çatmır. Əvvəla, bir süfrədə çörək yemişik. Onu halal edin. Sonra mənim işdən çıxmağım haqqında ərizəmi qəbul edin. Bunu nə Səmədov (birinci katib), nə də sədr Şərfalı müəllim qəbul etməyiblər. Ümüdim sizədir.

Hamı ayağa durdu. Bayıra çıxmaq istədilər.

Hacı ağa:

- Camaat, dayanın. Bunu mənə görə edin. Axı, canım əldən gedir. Yaşdaşmışam.

Hamı yenidən əyləşdi. Sədr və katib camaatla bir də məsləhətləşdi. 5-6 nəfər kolxoz üzvü danışdı. Qalanlar ağanı dövrəyə aldı: - Ağa, bu nə işdi, bizi qoyub, getdin, - dedilər.

Hamı ağanın başına yığıldı. “Kolxoz batdı”, - dedilər. Ertəsi gün ağa açar - kilidi təhvil verdi. Çəkib, yoxlayan olmadı. Anbar qəbul olundu.

***

**Ağanın bacısı qızı Nisəxanım gözü ilə gördüyü bir xatirəni yad etdi.**

Heç vaxt qohumluq adı ilə ağaya müraciət etməzdik. Küçə qapısina çıxıb, əvvəl qapını öpdüm. Dayandım. Qapını bəzəyən rəngbərəng saplara, parça xırdalarına diqqət etdim. Bir də qapıdakı qırmızı boya yerləri yadımda qaldı. Axı buradan keçən hər qadın bu qapını öpmədən keçməzdi. Çoxu təmiz bildiyi paltarından söküb, Allahı çağıra - çağıra bir sap bağlayandan sonra rahatlaşıb keçib gedərdi. Baxdım, baxdım. Yenə öpdüm. Birdən ağanın "Ay Nisə, gəl içəri, bir görüm, Şamaxıdan nə xəbər gətirmisən,"- dedi və qapının ağızında alnımdan öpdü. Birinci sinifdə oxuyurdum.

Elə bu anda 5-6 nəfər şəxs qapıya yaxınlaşdı. Qabaqda gələn ağsaqqal bir kişi ağanı səslədi.

- Ay ağa, bir bayıra zəhmət çək.
- Buradayam deyib,- irəli yeridi, - içəri gəlin.

Buradakı insanlarda mənim kimi qapını öpüb içəri keçdilər.

15-16 yaşında bir qız uşağını atası dalından yerə qoydu. Ayaq üstə dura bilmirdi. Yuxulu kimi özündən getmişdi.

- Bir aydan yuxarıdı. Bu uşaq, pambıq yığanda ilan onun üstünə cummuş, qorxub süst olmuşdur. Gəzmədiyimiz yer yoxdu. Ağa, sizi deyib gəlmişik.

Balamızı bizə qaytar,- deyən qızın anası ağanın əlindən öpdü.

Ağa əvvəl yer düzəltdirib, həyətdə onu uzandırdı. Hamı kənara çəkildi. Ağa qızın anasının köməyi ilə onu tütyələdi. Sonra dualar oxuyub pilədi. Ta ki, qız yuxuya getdi. Məşədi Suranı çağırıb çörək, su gətizdirdi. Qızın yanına süfrə salıb qoydu. Yenə dualar oxumağa başladı.

Hamı kənara çəkildi, ağa da. İki saata qədər gözlədilər. Qız qəflətən ayıldı. Su içdi, çörək kəsib yeməyə başladı. Heç kəs dinmirdi. Ağa atasına işarə verdi ki, sən get yanına.

- Ata, mən haradayam? - deyib soruşdu.

Atasını və qohumlarını ağlamaq tutdu.

Qız danışırdı. Ağa yaxına gəlib, "dur ayağa, ağıllı balam", - dedi.

Atası onun əlindən yapışıb qaldırdı. Yavaş - yavaş gəzdirdi. Sonra getdilər.

Üç gündən sonra on nəfərdən çox insan, iki iri qoçla gəldi. Kəsdilər. Ağa əvvəl imkansızlara paylatdı. Özü də bir qurban payı götürdü. Sonradan qızın toyu olanda, yenidən gəlib qurban kəsdilər.

***

Sadıqov İlhamı Şamaxıda tanımayan azdır. Uzun müddətdir ki, polis şöbəsində işləyir. Onda xüsusi bir insani keyfiyyəti var. Onu tanıyanlar bilirlər. Onda bu insani keyfiyyətin hardan möhkəmləndiyi mənə maraqlı

idi. Mənim onunla görüşməyimi məsləhət bilən Ağamehdi müəllim yalnız onu dedi ki, o mütaliəçidir. Uşaq vaxtı bizdə çox olub. Söhbətimizi bitirəndə mənə məlum oldu ki, Hacı ağanın həyat nümunələri İlhama çox hopub.

## GET, İŞİNDƏ OL

“Mən Ağanın yeganə oğlu, Ağamehdi ağadan fotoaparatla şəkil çəkməyi öyrənirdim. Ağanı bir gün qapının ağzındakı daşın üstündə oturan gördüm. O, elə oturmuşdu ki, sanki, daşa, divara işıq salırdı. Yeniyetmə yaşım olsa da, sevirdim Ağanı. Axı evdə, küçədə, bəzən məktəbdə də hamı Ağanın insanlığından danışırdı. Çatdım. Salam verib, dik dayandım. Anam demişdi ki, həmişə onun əlindən öp. Öpmək istədim. Qoymadı, əksinə sağ əli boynuma sığal çəkdi. Alnımdan öpdü. Ayağa qalxıb Ağamehdini səslədi. O, ayağa qalxanda hündür boyuna, enli kürəklərinə, dolu vücuduna tamaşa etdim. Parsun yay kostyumu, ağ araqçın, ayaqlarındakı  çust ağaya elə yaraşırdı ki, sanki hər şey fırça ilə çəkilmişdi. Bu, heç vaxt, elə bu gün də, yadımdan çıxmamışdır. Məni içəri salıb yenə əyləşdi. Ağamehdi gəldi. 15 dəqiqə məşğul olduq ki, ağanın amirana səsi eşidildi.

- İlham, öyrənmisən?

– Bəli, ağa, - dedim, əllərimi yanıma saldım.

Üzünü evə tutub zarafatla "Məşədi, bura gəl",- deyib, Sura xalanı səslədi:

- A Məşədi, gəl, bir şəkil çəkdirək.

İçəridən qara kəlağayı ilə yaşmaq tutan orta boylu, nisbətən dolu bədənli xanım-xatun Sura xala çölə çıxdı.

Yaşmaq üzündə, "ay ağa, başıva dönüm, necə məsləhətdi" dedi.

- Hə, onda çəkdirdik. Bu gün məsləhət belədi ki, Səlimbanın oğlu bizim şəklimizi çəksin.

Ağamehdi ağa aparatı düzəldib, mənə verdi. Mən utana - utana aparatı yuxarı qalxızdım. Əllərim əsirdi.

Hacı ağa:

- Oğlum, dayan bir, - dedi.

Mənim yanıma gəldi. Başımı tumarladı. "Görürəm, yaxşı şəkilçəkən olacaqsan, - dedi. İndi çək", - deyib, yerinə keçdi.

Daha əvvəlki qorxudan əlamət yox idi:

3 dəfə çəkdim. Hər üçü yaxşı düşmüşdü.

- Hə, daha mən sənin işini bəyəndim. Bu gündən ustasan. Get, işə başla.

Alnımdan öpdü.

Ağamehdi ilə çölə çıxdım. O, məni bir xeyli ötürdü. O gündən başladım şəkil çəkməyə.

Hər dəfə, elə indi də, aparatı üzümə tutanda Ağanın şəkli gəlib durur gözümün qabağında, şəkil çəkib qurtaranda da, elə bilirəm deyəcək: "Mən sənin işini bəyəndim, get, işə başla."

# AD GÜNÜNDƏ

Bu günə xüsusi hazırlaşmışdıq. Ağanın, şübhəsiz, məclisdə iştrakı olacaqdı.Tahir kimi, mən də onun yaşının günlərini sayırdım. Həm də onda biz böyüklərlə bir sürfədə oturacaq, onların söhbətlərinə qulaq asacaqdıq. Təmiz yay havası idi. Bu ayda Şamaxıda həmişə mer - meyvə bol olur. Yay yaxşı gəlmişdi. Taxıl, mer-meyvə bazarda ayaq tutub yeriyirdi. Atam kimi, Abas əmi də ticrətdə işləyirdi. Mehriban idilər. Bütün məsləhətlərini birlikdə edərdilər. Ona görə mən də Tahirlə dost idim. Demək olar ki, bir yerdə böyümüşdük.

Atam, anam və mən Abas əmigilə gələndə, artıq hər şey hazır idi. Sufrə düzəlmişdi. Qəşəng sular, limanadlar süfrəni bəzəmişdi. Hamı ağanı gözləyirdi. Uşaqlara Məşəd Səkinə xala və anam öyüd verirdilər:

- Bax, ağa gələcək, səs salmaq olmaz, bərkdən danışmaq olmaz. Özümüz hər şeyi çəkib sizə verəcəyik. Bir də süfrədə baxın, görün, böyüklər necə yeyib - içirlərsə, siz də elə yeyib-içərsiz. Bir şey istəyəndə, bizim qulağımıza deyin. Ağa onsuz da sizi çox istəyir.

Abas əmi bu yerdə “Səlimbala” dedi. Atamla Abas əmi bayırda söhbət edirdilər

Birdən küçə qapısı açıldı.

– Ağa gəldi,- dedilər. Hamı ayağa durdu. Sevindik. Qabaqda Məşəd Sura uşaqlarla, onun dalınca Ağamehdi ağa, ən dalda Ağa özü gəlirdi. Hamı ilə

görüşdü, əyləşdi. Bir tərəfində Tahir, bir tərəfində də məni oturtdu. Öz uşaqları Məşədi Sura xalanın yanında oturdu. Süfrədə səs yox idi.

Ağa Tahirə xeyir-dua verdi. Onun alnından öpdü. Çox səmimiyyətlə "Bisillahir rəhmair rəhim" - deyib - özü çörəyə əl uzatdı. Səkinə xala sevinirdi. O, atasına yaxınlaşıb:

- Ağa, başuva dönüm… Hamısını özüm bişirmişəm. Lap arxayın ol, - dedi.

Ağa də əvəzində

- Bilirəm, bilirəm, qızım, - dedi. Sonra - Məşədi qızı, gətir, görüm,-dedi.

Elə bu anda, Məşədi Sura xala əlində ağzı bağlı tavanı ağanın qabağın qoydu. Ağa tavanı açıb, üzünü hamıya tutdu:

- Yeyin, balam, nə gözləyirsiz? - dedi. Tavada kartofla yumurta çığırtması var idi. Hamıya payından verdi Ağa. Abas əmiyə və atama zarafatla:

- Sizə düşmür, - dedi.

Hamı güldü. Ağa da özünə məxsus gülümsündü.

Atam və Abbas əmi də özlərin elə bizim kimi, aparırdılar. Onda gördüm ki, ağanın yanında hamı özünü uşaq kimi aparır, onun sözlərinə acgözlüklə qulaq asırlar. Həmişə şirin danışıb, gülməyi xoşlayan Abas əmi sanki heç dinmirdi.

Atamsa, hərdən “Ağa, başva dönüm”,- deyib Ağanın yanında, məndən də zərif olmuşdu. Daha da sevdim Ağanı. Çörəkdən sonra yenə Sura xala termosda çay gətirdi. Bir stəkan töküb verdi ağaya.

Yenə Məşədi Səkinə atasına yaxınlaşdı:

- Ağa, başuva dönüm, Abas qarpız alıb, tavada sudadı. Gətirim kəs.

Tavada qarpızı və bıçağı gətirdilər. Yer açdılar süfrədə. Ağa qarpızın başını kəsdi.

- Atmayın, - dedi. Böldü. Özünə, mənə və Tahirə pay götürdü. Qalanını siz bölün,- dedi.

Ağanın gözü süfrədə limonad şüşəsinə sataşdı.

- Ay Məşədi,- dedi və üzünü Sura xalaya tutdu.

Limonad şüşəsinin başına şahadət barmağı ilə döyə - döyə:

- Bundan içirsən?- dedi. İstəyirdi özü Sura xala üçün limonad töksün.

- Yox, ay Hacı , başıva dönüm, mən içmirəm.

- Deyirsən bu şeytan suyudu. Bəs onda bu şeytan balalar niyə içir? Yox, içmək lazımdır. İçin, qoçaq balalarım, - dedi.

## OĞURLUQ

Şamaxıya səs düşdü ki, Səlimbalanın dükanından oğurluq olub. İş açılmadı. Deyəsən 1956-cı il idi. Səlimbala özü söhbət edirdi. “İşə gedirdim. Payızın orta ayları olardı. Hava nisbətən soyumuşdu. O, gün havada poranlıq vardı. Səhər işə gedəndə Ağa ilə küçədə üz - üzə gəldim. Sevindim ki, bu gün işim uğrlu olacaq. Ağa əvvəl səhhətimlə maraqlandı. Sonra “bikef olma, oğul, mərdimazarın ipi uzun getməz. Axırı yaxşı

olar. Darıxma, bir az da gözlə",- dedi və ayrılmaq istədi, əlavə etdi. İşdən gələndə bizə gələrsən. Onun əlindən öpmək istədim. Qoymadı. Şamaxılısayağı gözlərimizlə elə məhəbbətlə ayrıldıq ki, bunu heç bir sözlə ifadə etmək olmazdı.

İşdən qayıdanda. Ağanı qapısının ağzında daşın üstündə oturmuş gördüm. Yenə əvvəlki mehribanlıqla görüşdük.

- Hə, Səlimbala, səhər işdən çıxandan sonra hamama get, sonra bizə gələrsən,-dedi. Az söhbət edib, ayrıldıq. Onsuz da ağanın yanında artıq söz danışmaq olmazdı. O, insanlara qayğı ilə yanaşdığı kimi, danışmağına, nitqinə də qayğı ilə yanaşırdı. Artıq sözdən qorxardı həmişə. Bir dəfə bir məclisdə ağa dedi ki, insanı ucaldan da, xar edən də sözdür. Böyük alimlər, şairlər, dövlət başçıları sözün gücünə dünyada şöhrət sahibi olurlar. Güclü sözlə yazılmış "Qurani - Kərim" dünya durduqca yaşayacaq. Çünki onda hər söz yerində, mənalı işlənmişdir. Orada artıq söz yoxdur. Həmişə özünüzü artıq sözdən qoruyun. Adətən ağa ayağa duranda insanın sayından aslı olmayaraq, hamı ayağa qalxardı. Ağa xeyir-duasını verəndən sonra gedər, insanlardasa xoş əhval - ruhiyyə qalardı. Hamı gedəndə yolda ağanın xeyir - duasından danışardı.

Ertəsi gün getdim. Məni Məşədi Sura xala qara kələğayı ilə yaşmaq tutulu qarşıladı. İçəri, evə dəvət etdi. Ağa xalçanın üstündə Quran  oxuyurdu. Əli ilə mənə oturmaq işarəsi verib, yer göstərdi.



**Ağa yaxın adamları ilə birlikdə**

Qranı qurtarıb, stolda əyləşdi. Oğurluq haqqında hal - əhval tutdu. Məşədi Sura xala iki stəkan çay gətirdi. Çaydan bir qrtum içib,keçdi xalçanın üstünə, əvvəlki yerində oturdu. Kiçik bir kağıza nəsə yazdı. Üçbucaq qatladı. Məşədiyə üzünü tutub, “bunu, yaşıl parçaya bük” dedi. Sura xala büküb gətirdi. Özü öpdü, verdi Ağaya. Ağa da aldı, öpdü və mənə verdi. Mən də aldım. “Qoy döş cibinə”. Qoydum cibimə.

- Səhər ala-toran gedərsən Zoğalçaya. Atarsan suya. Gedəndə qabağına adam çıxarsa, qayıt gətir ver mənə.

Evdən bayıra dal-dala çıxdım. Hamı belə edirdi. Hamı bunu ağaya hörmət təzahürü kimi qiymətləndirirdi. Ertəsi gün ağanın dediyi kimi etdim. İşə gedəndə ağaya dedim nəticəni. O da həmişəki kimi xeyir-dua ilə məni yola salıb, “bala, 10 günə oğrun tapılar”, - dedi. Üstündən 5-6 gün keçmişdi. Milisdən Xəlilov çağırıb, məni Bakıya apardı.

Oğrular tutulmuşdu. İş açıldı. Sovetlərin əlindən canım qurtardı.

Ağaya canımı qurban dedim. Demə, həmin yazı "Həzrət Abbas ərizəsi imiş”.

## ÖVLAD PAYI

Hacı ağanın sevimli bacısı Seyidfatmaxanım oğlu Ələşrəfi 1942- ci ildə mühribəyə yola salır. Ana oğluna namaz qıldırıb, başına quran qoyur və deyir:

- Oğlum, Quran səni qorusun.

Elə də olur. Oğlan müharibəyə gedir. Ağır döyüşlərin birində, mühasirəyə düşür. Mühasirədən çıxanda, 12 nəfər çıxırlar. Qırılan insan selini görəndə havalanır. Hərbi xidmətdən buraxırlar.

1943-cü ildə sağ-salamat qurtarıb gəlir. Ancaq özünü idarə edə bilmir, havalı olur. Qonşular məsləhət bilirlər ki, evləndir.

Seyidfatmaxanım qardşının yanına gəlir. Vəziyyəti danışır. Ağa qızın çətinliyini bilir. Ancaq bacısının sınıq ürəyini bir də sındırmaq istəmir:

- Bacı, qızlarımın hansını istəyirsən oğluna al, sənə qurbandı.

Bunu yalnız Ağa edə bilərdi.

Xədicəni istəyir.

Bir neçə gündən sonra gəlin köçürür.

Bir uşaqları olur. Əvvəl Ələşrəf vəfat edir, sonra da Xədicə bu taleyə dözə bilmir, o da vəfat edir.

## AT GETMİR

Hacı ağa ambardar işləyəndə nahara evə gəlir. Əlbəttə, namaz qılıb ibadət etməli idi.

Kolxoz üzvlərindən biri ağanın evinə gəlir:

- Mənə çatacaq məhsulumu götürmək istəyirəm.

Hacı ağa açarı ona verir ki, get, aç qapını, 103 kq buğdanı çək götür.

Çəkidə nəfsi kişini aldadır. Yükü çatanda at hürkür, qoymur yükləməyə.

Ağa özü gəlib çatır. Atın başına yapışır. At yenə sakit durmur. Onda Ağa kişiyə deyir: "Səhv etməmisən"?

- Ağa, eləmişəm.

- Artığı ambara boşalt. Yükünü çat, get.

Kişi elə edir. At tərpənmir, yükü köməksiz çatıb gedir.

Ağa deyir: "Oğul, bu el malıdır. Bundan oğurluq dadan xeyir görməz."

# ŞƏR ATAN İNSAN

Ağanın yanına iki nəfər gəlir. Biri qonşusuna şər atır. Qurana and içmək istəyirlər.

Ağa izah edir ki, Quranda xüsusi ayə var. Ona and içəndə, yalan danışan tərəf mütləq zərər çəkir. Səbəbi budur ki, hər bir İslam əhli olan kəs gərək Qurana yalan danışmasın. Mən məsləhət bilirəm ki, and içməyəsiz. Gedib işin düzünü özünüz tapasız.

Şər atan tərəf təkid edir ki, and içsin.

Ağa üzünü həmin şəxsə tutub, soruşur:

- Oğul, and içirsən?
- Bəli, Ağa, mən təmizəm, and içirəm.
- Buyur, oğul.

Şərlənən kişi and içir ki, xəbərim yoxdu.

Sonra şər atana deyir:

- İndi sən and iç.

O da and içir ki ,mənim malımı bu şəxs aparıb.

Ağa deyir: - Nəticəni özünüz görəcəksiniz.

Sonradan şər atan şəxs böyük zərər görür.

***

Məşədi Əlövsət 1929-cu ildə Lahıc kəndində Kərbalayi Əsədin ailəsində dünyaya gəlmiş, Şamaxıya 1947 - ci ildə köçmüşdür. Məsləhət almışdım ki, Hacı ağa ilə bağlı onunla da söhbət edim. Məşədi Əlövsətin öz otağında söhbət etdik.

“Əvvəl onu deyim ki, Ağa şəxsən mənim, məsləhət ocağım olub. Məni çox çətinliklərdən qurtarıb. İndi də onun dedikləri mənim və balalarımın dadına çatır”.

Əvvəl bu iki nəsihəti danışacağam:

***

Mənim Maqsud adlı tanışım şofer idi. Ot gətirəndə maşını yanmışdı. Maşın dövlət maşını olduğu üçün, - onu təcili yığmaq lazım idi. Yanıma borc pula gəldi. Yoxum idi. Başqa insandan borc tapmağı təvəqqe etdi. Gümanım Hacı ağaya idi. Getdim Ağanın yanına. Məni qapıda görən kimi, “Əlövsət bala, gəl içəri” - dedi.

Keçdim həyətə.

- Çıx evə.

- Yox, ağa, iş üçün gəlmişəm.

Vəziyyəti danışdım. 250 manat pul istədim.

- Bəlkə çox lazımdır?

- Yox, Ağa, bəsdir.

Evə keçdi. Pulu gətirib verdi mənə.

- Əlövsət bala, pulu sənə bir ay müddətinə borc verirəm, - dedi - Borc verməyin və almağın şərtini bilirsən?

- Yox,ağa, bilmirəm.

- Elə isə qulaq as. Borc verəndə iki nəfərin arasında Allahın şəhidliyi ilə müqavilə bağlanır. Allah verənə də, alana da inam verir. Əgər pul vaxtında verilsə, pulu verən də, alan da böyük savab sahibi olur.

Vaxt pozulsa, hər ikisi günaha batır.

İndi elə etmək lazımdır ki, hər ikimiz savab sahibi olaq.

- Baş üstə, ağa,- dedim.

Borcu vaxtından bir gün qabaq gətirdim.

Hacı ağa pulu götürmədi. “Yox, Əlövsət bala, günaha batıram. Müqavilə pozulur. Gərək müqavilə pozulmasın”.

Ağaya and-aman etdim. Qoydum pəncərədəki kitabın arasına. Səhər götürməyi, xahiş etdim.

Ağa xahişimi qəbul etdi. Sonra bir xeyli məsləhət alıb, evə getdim.

## SƏDƏQƏ VERMƏK HAQQINDA

Bazar qapısında bir rus oturub sədəqə yığırdı. Mən də sədəqə verdim. Kənardan dedilər:

- Sədəqə vermə, araq alıb içəcək.

Bikef oldum. Küçədə Hacı ağa ilə rastlaşdım.

Ağaya başıma gələni danışdım.

- Düz eləmisən, - dedi,- sən Allah yaratdığı bəndəyə, Allah adı ilə bağladığın sədəqə vermisən. Sədəqə alan necə xərcləyər özü bilər. Onun günahı və ya savabı özünündür. Əlövsət bala, peyğənbərin hədislərində deyilir: "Sədəqə vermək insanı vaxtsız ölümdən qurtarar."

# EL MƏHƏBBƏTİ

Bu evə yenicə köçmüşdüm. 1978-ci ilin iyun ayı idi. İşlərimin çox olan vaxtı idi. Qapı döyüldü, küçədə Rəhim kişini gördüm. Rəhim kişi Ağanı sevənlərdən, onun hər günündə yanında olan əsl şamaxılıardan biri idi. Uzun müddət xəstə yatan ağanın yastığı dibində oturanlardan biri də Rəhim kişi idi. Son günlər o küçə ağanı sevənlərlə dolu olardı. Yaxınları, qonşuları, onun nəsihətindən, düzlüyündən bəhrələnənləri ümumiyyətlə, demək olar ki, Şamaxı camaatının yarısı Hacı ağa ilə sağlıq görüşünə gəlirdilər. Neçə gün idi ki, küçədə maşın işləmirdi. Yataq otağına daxil ola bilməyənlər, elə küçə qapısından  öpüb, küçədə özünə durmaq üçün yer  axtarırdı.

Mənimlə görüşdü.

- Ağa keçindi - dedi. - Elə o saat, mən sənin yanına gəldim. İndi Lahıcdan Əqil kişini, bir də zəncir vuran, növhə deyən insanları çağırtdır, - dedi.

Mən poçta qaçdım. Yaxın qohumlarıma zəng etdim. 3-4 saat keçəndən sonra 8 maşın insan gəldi. Küçəbaca doldu insan seli ilə. Nəinki Şamaxı, bütün kəndlər töküldü ağanın dəfninə. Dəfn mərasiminin təşkili 10 nəfərə tapşırıldı. Mərsiyə deyənlər, zəncir vuranlar, bir də növhə deyənlərin işinə mən nəzarət edirdim.

Məşədi Əlövsət bir də dayandı. Heç demədim ki, Əqil kişi kimdir? Hüzür yerindən birində - Lahıcda Hacı ağa

onun meyit yumasını görmüşdü, onda məndən sorşdu:- Əlövsət bala, meyit yuyan kimdir?

- Adı Əqildir, - dedim.

- Bəh-bəh nə gözəl, nə düzgün yuyur. Dini göstərilənlərin birini də buraxmır. Afərim belə insana, afərim. Bax, sənə deyirəm, dirilik vəsiyyətidir. Məni Əqil kişi yuyar.

- Ağa….

Əlini dodağına apardı. “Günah eləmə”, demək idi bu.

Ağa evdə də demişdi. Hamı bilirdi.

Ona görə də Əqil kişi Lahıcdan gəldi”.

***

Bütün küçələr insan seli ilə dolmuşdu. Saat 3:00-da cənazə qaldırıldı. Zəncir vuranlar, nohə deyənlər hərəkətə başladı. Mən özüm də onların arasında idim. Sanki tonlu musiqi çalınırdı. Nohəçilər və zincir vuranlar artıq hərəkətə yol vermir, ağanın öz yerişi kimi ağır-ağır məclisi davam etdirirdilər.

Ağanın qonşusu Nadir kişi belə təsvir edir:

– Lahıcdan gələn din xadimləri dəfni Aşura günü kimi matəm edirdilər: Ağanın bütün yeddi günlük hüzürü beləcə keçdi. Belə dəfn və hüzür məclisini mən bu vaxta kimi Şamaxıda görməmişdim. Heç ondan sonra da görməmişəm. Təzə Pir məscdinin axundu Bülbül məclisi aparırdı.

İnsan seli ağanı çiynində Şaxəndan qəbristanlığına kimi apardı. Qəbristanlıq insanla dolmuşdu. Ardı hələ

də küçədən üzülməmişdi. Dəfn başladı. İnsan seli gəlməkdə davam edirdi.

Hamı sakit durub, gözəl ağanın gözəl dəfninə tamaşa edirdilər. Dəfindən sonra küçə qapısında insan seli gəldikcə dua verilir və hamı başsağlığı verib gedirdi. Yaxşı yadımdadı, bu düz iki saat çəkdi.

Bu dəfni, bu hörməti, bu el məhəbbətin görən şair Biriya (İranda xalq təhsili naziri işləmiş, sonra SSRİ-yə sürgün olunmşdu. O illərdə Şamaxıda, indiki Şəhriyar qəsəbəsində yaşayırdı) bədahətən aşağıdakı nohəni qələmə aldı. Vaxt tapıb əzbərlədik və oxuduq. Ağanın müsübətini olduğu kimi qələmə almışdı.

Bu mərsiyyə birinci dəfədir ki, işıq üzü görür.

Höccətül islam olan ağam, vay, vay!
Seyidi - ikram olan ağam, vay, vay!

Xidmət edən yurduna övladına,
Bərkdə çatan xəlqimizin dadına.
Layiq olan şöhrətinə, adına.
Höccətül islam olan ağam, vay, vay!
Seyidi - İkram olan ağam, ay, vay!

Məşğul idi ömrü boyu elmilə,
Hamıya verdi öydü zəhmət ilə,
Aldı fələk bizdən onu zülm ilə.
Höccətül islam, olan ağam, vay, vay!
Seyidi - İkram, olan ağam, vay,vay!



**Ağanın xalça üzərində şəkli**

Dinimizin, Xəlqimizin rövnəği.
Şəri - Şəridən pak olan bey dağı
Hacı ağa Seyid Məhəmmədtağı.
Höccətül islam olan ağam, vay,vay!
Seyidi -İkram olan ağam, vay, vay!

Lütvi Xudavəndi, Peyğənbərdi bu,
Sibiti Nəbi varisi heydərdi bu.
Sahibi mehrab ilə mənbərdi bu.
Höccətül islam olan ağam,  vay,vay!
Seyidi - İkram olan ağam, vay, vay!

Firqətinə yandı, bütün dostların,
Od tutub, odlandı, bütün dostların,
Gör necə giryandı,bütün dostların.
Höccətül islam olan ağam, vay, vay!
Seyidi - İkram olan ağam, vay, vay!

Hardasan, ay cəddüvə qurban, Seyid,
Təşdid ilə məddüvə qurban, Seyid.
Aləm olar cəddüvə qurban, Seyid.
Höccətül islam olan ağam, vay, vay!
Seyidi - İkram olan ağam, vay, vay!

Yada salanda qəmüvü gülmərəm,
Səndən, Ağa, qeyrisini bilmərəm,
Sənsiz daha, bu yerlərə gəlmərəm.
Höccətül islam olan ağam, vay, vay!
Seyidi - İkram olan ağam, vay, vay!

Sən Şamaxı əhlinə bir nur idin,
Cançun olan qəlblərdə şur idin,
Ay kimi Aftabda* məşhur idin.
Höccətül islam olan ağam, vay, vay!
Seyidi - İkram olan ağam, vay,vay!

Nəsli Nəbi, ey xələfi övliya.
Səndən alıb elmi şəriət ziya.
Nalə edər matəmüvə Biriya* !
Höccətül islam olan ağam, vay, vay!
Seyidi -İkram olan ağam, vay, ay!

**Şamaxı 1978 - ci il.**

**1. Aftab -- günəş*
** 2. Biriya -riyasız, səmimi (eyni zamanda müəllifə işarədir)*



**Ağanın məzarı**

Mərsiyyəni Biriya əvvəl məclisdə avazla özü oxudu.

Onu mənə - Məşədi Əlövsəd Kərbalayi Əsəd oğluna verdi. Mən də bu vaxta kimi saxlamışam.

Ağanın məclisi yeddi gün davam etdi. İmişlili Təzə Pir məscidinin Axundu Bülbül məclisi axıra kimi apardı.

Respublikanın bütün rayonlarından gələn insanlar ağanın əzizlərinə başsağlığı verəndən sonra qəbri üstə gedir, dua oxuyur, ziyarət edib gedirlər. Bəli, adi insan olan Hacı Ağanın (Mirməhəmmədtağının) hüzüründə olanlara və şamaxılılara elə gəldi ki, o, bir insan ömrü deyil, bir neçə yüzillik yaşamışdır.

- Hamı belə yaşaya bilərmi?
- Bəli, nəfsini özünə qul edənlər yaşaya bilər.

**Şamaxı. 3 noyabr 2005 -ci il.**

# MÜƏLLİFDƏN

Sovet dövründə düzlük haqqındakı biliklərindən söhbət açıb, Allahın göndərdiklərini xalqa çatdırmaq mümkün deyildi. Hacı Ağa bunları şəxsi nümunəsi ilə təbliğ edirdi ki, bu həm nəsildən-nəsilə keçirdi həm də uzun müddət şüurlarda yaşayırdı.

***

Oğlum Xətai məni sövq elədi ki, düzlükdən ölçüsü bilinməyən qəsr tikim. Bu qəsrin bütün materialını Hacı Ağanın həyatını öyrənməklə əldə etdim. Bu zaman elə qiymətli söz cövhərləri üzə çıxdı ki, bu sözlərlə düzlüyün tacını belə tikmək olardı.

Ağanı öyrəndikcə bu insanı o qədər sevdim ki, artıq oğlum mənim kölgəmdə su açmış oldu.

***Əvəz Sirac oğlu Süleyman.***
***20 sentyabr 2006-cı il.***

# SON SÖZ

Sovet dövründə ateist tərbiyəsi almışam. İlahiyyat elmi haqqında məlumatım öz oxuduqlarımdır. Hacı ağanın (Mirməhəmmədtağını nəzərdə tuturam) həyatı ilə tanış olandan sonra belə əqidəyə gəldim ki, əgər gəncliyimə qayıda bilsəydim, İlahiyyatdan başqa heç bir elmə maraq göstərməzdim. Çünki o, insanı dünya malına hərislikdən qoruyur.

Bu elmin sahibi olanlar, zalımlıqdan, qəddarlıqdan, yaltaqlıqdan, oğurluqdan, quldurluqdan, rüşvətxorluqdan, qatillikdən, əxlaqsızlıqdan uzaq olurlar.

İlahiyyat elminə çox az bələd olduğumdan, oxucu yaddaşında Hacı ağanı İlahiyyatçı alim kimi saxlaya bilmədim. Onu İlahiyyat elminin işığından yaranan, dərk olunub yaşyan insan kimi təqdim etdim.

Hacı ağa deyərdi: "Məni təbliğ etməyin, elədiklərimi görün, düzlüyü əldən verməyin."

Bu yazımda Hacı ağanı təbliğ etmirəm. Sadəcə olaraq onun yaşadığı ömrün az bir hissəsini həmişəlik yaşatmaq istəyirəm.

Əziz oxucu, sizinlə etdiyim söhbətlərdə, nəticəni söyləməmişəm. Nəticə çıxarmağı öz ixtiyarınıza verirəm. Bu əsərdə nəticələr çoxşaxəlidir. Bir də Şirvanda belə bir deyim var ki, sözü açanda, söz yazıqlaşır.

Kitabın oxucusu olanlara, oxuyub fikrini bildirənlərə əvvəlcədən minnətdarlıq edirəm.

Ey Rəbbim! Şükür olsun sənin böyüklüyünə ki, bu kiçik işi başa vurmaqda mənə səbr və taqət əta etdin.

Ey Rəbbim!

Bizləri də Hacı Mirməhəmmədtağı kimi özünün sadiq və əməlisaleh bəndələrindən olmağa doğru apar.

## MÜNDƏRİCAT

Ön söz
Bağışlayan və rəhm edən Allahın adı ilə....................................3
Şairin ölümü....................................................................18
Uzun ayrılıq yolu..............................................................21
Nəcəf - Əşrəfdə...............................................................23
Vətən çağırır....................................................................28
Şamaxıda erməni qırığı....................................................33
Yeni təhsil arzusu.............................................................35
Ailə həvəsi........................................................................37
Olanları çatdırıram...........................................................45
Ağır günlər.......................................................................49
Məşhədi Səfurənin yadında qalanlar.................................50
Get, Allah köməyin olsun..................................................53
Kolxozda bayram..............................................................55
Cuhud çörəyi....................................................................57
Mənim oğurluğum............................................................58
Anbarda oğurluq...............................................................59
Alma ilan olub..................................................................61
Sədr əhvalatı.....................................................................61
Hacı Ağanın nəsihəti........................................................63
Ağanın işdən çıxması.......................................................66
Get, işində ol....................................................................70
Ad günündə......................................................................72
Oğurluq............................................................................74
Övlad payı.......................................................................77
At getmir..........................................................................78
Şər atan insan..................................................................79
Sədəqə vermək haqqında..................................................81
El məhəbbəti....................................................................82
Müəllifdən........................................................................89
Son söz.............................................................................90

Yığılmağa verilmişdir: 28.12.2011
Çapa imzalanmışdır: 01.05.2012
Kağız formatı: 60x84 1/16
Fiziki çap vərəqi:5.75
Mətbəə kağızı: № 01
Sifariş: № 722   Sayı: 500 nüsxə
***Ofset üsulu ilə çap olunmuşdur***

*Kitab **“Yazıçı”** nəşriyyatında yığılıb, səhifələnmişdir,*
*Ünvan: Bakı, Mətbuat pr. 24,*
*Telefon:(99412) 510-79-94, (99412) 510-79-94*
***e-mail: desinger2010@mail.ru***